# ELM

Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin orqanı

Qüvvət elmdədir...

Nizami Gəncəvi

# НАУКА

Орган Президиума Национальной академии наук Азербайджана

# SCIENCE

Newspaper of the Presidium of the Azerbaijan National Academy of Sciences

№ 03 (1485) ❖ Cümə, 23 yanvar 2026-cı il ❖ Qəzet 1984-cü ildən nəşr olunur





# Prezident İlham Əliyev Ümumdünya İqtisadi Forumunun illik toplantısında iştirak etmək üçün İsveçrəyə səfər edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ümumdünya İqtisadi Forumunun illik toplantısında iştirak etmək üçün yanvarın 19-da İsveçrə Konfederasiyasına səfər edib.**

Dövlətimizin başçısını və birinci xanım Mehriban Əliyevanı Sürix şəhərinin beynəlxalq hava limanında rəsmi şəxslər qarşılayıblar.

Prezident İlham Əliyev Davos Ümumdünya İqtisadi Forumu çərçivəsində bir sıra dövlət və hökumət nümayəndələri, şirkətlərin rəhbərləri ilə görüşüb. Dövlətimizin başçısının Braziliyanın aparıcı investisiya banklarından və aktivlərin idarə edilməsi şirkətlərindən biri olan "BTG Pactual" şirkətinin sədri Andre Esteves, "Vestas Wind Systems" şirkətinin marketinq, kommunikasiya, davamlılıq və ictimaiyyətlə əlaqələr üzrə qrupunun baş vitse-prezidenti Morten Dirholm, Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru Tedros Adhanom Qebreyesus, dünyanın ən böyük liman operatorlarından biri olan "DP World" şirkətlər qrupunun sədri və icraçı direktoru Sultan Əhməd bin Sulaim, "Carlsberg Group" şirkətinin Baş icraçı direktoru Yakob Aarup-Andersen, İraq Kürdüstan Regionunun Baş naziri Məsrur Bərzani, Finlandiya Respublikasının Prezidenti Aleksandr Stubb, Amerika Birləşmiş Ştatlarının "J.P. Morgan" şirkətinin sədri və baş icraçı direktoru Ceymi Daymon və Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) prezidenti Odile Reno-Basso ilə keçirdiyi görüşlər zamanı qlobal iqtisadi proseslər, inkişaf etməkdə olan bazarlarda investisiya mühiti, qarşılıqlı investisiya layihələri və əməkdaşlıq perspektivlərinə dair fikir mübadiləsi aparılıb.

Prezident İlham Əliyev yanvarın 20-də Davosda "Euronews" televiziyasına müsahibə verib.

Dövlətimizin başçısı müsahibəsində ilk olaraq beynəlxalq hüququn zəiflədiyi yeni dünya düzənində Azərbaycanın öz suverenliyini milli maraqlar çərçivəsində bərpa etdiyini vurğulayıb. Bu yeni şəraitdə Cənubi Qafqazın artıq sülh mərhələsinə qədəm qoyduğunu qeyd edib, Ermənistanla münasibətlərin artıq iqtisadi əməkdaşlığa keçdiyini bildirib. Bizim üçün regionda sabitlik, proqnozlaşdırılma və sülhün ən böyük sərvət olduğunu deyib. Prezident İlham Əliyev Azərbaycanın həm də qlobal enerji təhlükəsizliyinin əsas təminatçılarından birinə çevrildiyini diqqətə çatdırıb. Xüsusilə Avropanın enerji ehtiyaclarının ödənilməsində ölkəmizin mühüm rol oynadığını qeyd edərək, bəzi beynəlxalq qurumların bu uğurlara qarşı qərəzli yanaşmalarına artıq reaksiya verilmədiyini vurğulayıb. Yekunda bildirib ki, Azərbaycan müstəqil siyasət yürütməyə davam edir və regionda ədalətli, əbədi sülhün tərəfdarıdır.

Həmin gün Davos Ümumdünya İqtisadi Forumunun illik toplantısı çərçivəsində "Avrasiyanın iqtisadi özünəməxsusluğunun müəyyənləşdirilməsi" mövzusunda panel iclası keçirilib. Prezident İlham Əliyev tədbirdə iştirak edib.

Dövlətimizin başçısı iclasda "Euronews" televiziya kanalının Avropa üzrə müxbirinin Azərbaycan və Ermənistanın, eləcə də bütöv regionun kursunu və gələcəyini dəyişən tarixi sülh razılaşmasından sonra gələcəkdə atılacaq addımlarla bağlı suallını cavablandırıb.

Prezident İlham Əliyev çıxışında Azərbaycan və Ermənistan arasında sülh sazişinin paraflanmasını otuz ildən artıq davam edən müharibəyə son qoyan tarixi bir nailiyyət kimi qiymətləndirib. Dövlətimizin başçısı vurğulayıb ki, bu sənədin qısa müddət ərzində ərsəyə gəlməsi hər iki tərəfin sülh prosesinə olan güclü siyasi iradəsinin və sadiqliyinin əsas göstəricisidir. Prezident İlham Əliyev sülhün artıq praktiki iqtisadi nəticələr verdiyini, xüsusilə Azərbaycandan Ermənistana neft məhsullarının göndərilməsi ilə regionda yeni əməkdaşlıq dövrünün başladığını deyib. Bu prosesin bütün Cənubi Qafqazın xeyrinə olduğunu bildirərək, sülhün yaratdığı rifahın hər iki cəmiyyət tərəfindən tam dəstəklənəcəyinə dair nikbinliyini ifadə edib.

Dövlətimizin başçısı dünyada son dönəm baş verənlər, həssas qlobal mənzərədə Avrasiyanın mövqeyi kimi mövzularda da sualları cavablandırıb.

Prezident İlham Əliyev Davosda "Euronews" televiziyasına müsahibəsindən sonra bu telekanalın təşkil etdiyi "Azərbaycan rəhbərliyi ilə səhər yeməyi" adlı tədbirdə iştirak edib. Dövlətimizin başçısı tədbirdə müxtəlif ölkələri təmsil edən biznes nümayəndələrinin suallarını cavablandırıb.

Prezident İlham Əliyev Davosda aktivlərin idarə olunması üzrə dünyanın aparıcı şirkətlərindən biri olan "BlackRock"un baş icraçı direktoru Larri Fink və bu şirkətin tərkibinə daxil olan "Global Infrastructure Partners" (GIP) şirkətinin təsisçisi, sədri və baş icraçı direktoru Adebayo Oqunlesi, "Brookfield Asset Management" şirkətinin prezidenti Konnor Teski, Çex Respublikasının Baş naziri Andrey Babiş, Amerika Birləşmiş Ştatlarının "Dell Technologies" şirkətinin Avropa, Yaxın Şərq və Afrika üzrə prezidenti Adrian Makdonald, İsrail Dövlətinin Prezidenti İsxak Hersoq, Avropa İttifaqının Genişlənmə üzrə komissarı Marta Kos və "Vitol" şirkətinin baş icraçı direktoru Rassel Hardi ilə də görüşüb

Görüşdə iqtisadi, ticari, mədəni, humanitar əlaqələrin inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparılıb, bir çox sahələrdə əməkdaşlığın daha da genişləndirilməsi üçün böyük perspektivlərin olduğu vurğulanıb və qarşılıqlı maraq doğuran məsələlər müzakirə edilib.

Ümumdünya İqtisadi Forumu çərçivəsində yanvarın 21-də Davosda Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Tramp xüsusi müraciətlə çıxış edib. Sonra Donald Trampın iştirakı ilə panel iclas keçirilib. Prezident İlham Əliyev və qızı Leyla Əliyeva tədbirdə iştirak ediblər.

Yanvarın 22-də Davosda "Sülh Şurasının Nizamnaməsi" ("Board of Peace Charter") sənədinin imzalanma mərasimi keçirilib.

Dövlətimizin başçısı və tədbirdə iştirak edən digər dövlət və hökumət başçıları "Sülh Şurasının Nizamnaməsi" ("Board of Peace Charter") sənədini imzalayıblar.

Sonra Prezident İlham Əliyev ilə Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Tramp arasında görüş keçirilib.

# AMEA 2025-ci ildə mühüm

*Akademiyanın Elmi Bölmələri və*

- **AMEA Yer Elmləri Bölməsi**
- **AMEA nəzdində Respublika Seysmoloji Xidmət Mərkəzi**
- **AMEA Şəki Regional Elmi Mərkəzi**







**Yanvarın 16-da Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyətinin növbəti iclası keçirilib.**

Tədbirdə AMEA-nın prezidenti akademik İsa Həbibbəyli, Rəyasət Heyətinin üzvləri, Rəyasət Heyəti aparatının şöbə müdirləri, bölmənin üzvləri, bölmənin elmi müəssisələrinin direktorları və aidiyyəti şəxslər iştirak ediblər.

Əvvəlcə AMEA-nın Yer Elmləri Bölməsinin (YEB), AMEA nəzdində Respublika Seysmoloji Xidmət Mərkəzinin (RSXM) və Şəki Regional Elmi Mərkəzinin (Şəki REM) 2025-ci il ərzində əldə etdiyi nailiyyətləri, nəşr olunan elmi əsər və kitabları əks etdirən sərgiyə baxış olub.

İclası giriş sözü ilə **akademik İsa Həbibbəyli** açaraq tədbirin gündəliyi barədə məlumat verib.

Akademik İsa Həbibbəyli qeyd edib ki, bugünkü iclasla AMEA-nın elmi bölmələrinin 2025-ci ildəki fəaliyyətlərinə dair hesabatlara başlanılır və qarşıdakı günlərdə ümumilikdə Akademiyanın 6 bölməsinin, eləcə də regional bölmə və elmi mərkəzlərinin hesabatları ictimaiyyətə təqdim olunacaq. Akademik İsa Həbibbəyli vurğulayıb ki, məqsəd elmi nailiyyətləri dinləyib qiymətləndirmək, həmçinin ölkəmizin elmi ictimaiyyətinə təqdim etməkdir. Elmi nailiyyətlərin təbliği üçün hər bölmənin öz saytlarının mövcudluğunun və aktiv istifadəsinin əhəmiyyətinə toxunan akademik İsa Həbibbəyli bildirib ki, cəmiyyət bununla Akademiyada gedən elmi proseslərlə yaxından tanış olmaq imkanı əldə edir və onlarda müəyyən bir fikir formalaşır. AMEA rəhbəri, hesabatlar hazırlanan zaman müasirləşmə modelinin, müqayisələrin, cədvəllərin, diaqramların əksini tapmasının zəruriliyini vurğulayıb.

Akademiyada aparılan struktur islahatları barədə də məlumat verən akademik İsa Həbibbəyli, bunu dövrün çağırışlarının tələb etdiyini və qaçılmaz olduğunu bildirib, ötən müddət ərzində AMEA-da mövcud ştat vahidləri və daxili imkanlar hesabına 30-a yaxın yeni şöbənin yaradıldığını söyləyib. Bu çərçivədə bu günlərdə AMEA-nın elmi müəssisələrində Rəqəmsal elm sahəsi və süni intellekt üzrə şöbələrin yaradıldığını deyib, aparılan struktur islahatlarının elmin inkişafına təkan verdiyini diqqətə çatdırıb.

Daha sonra **AMEA-nın vitse-prezidenti, Yer Elmləri Bölməsinin Elmi şurasının sədri akademik İbrahim Quliyev** bölmənin 2025-ci il üzrə elmi və elmi-təşkilati fəaliyyəti haqqında hesabatını təqdim edib. Bildirib ki, ötən il bölmənin müəssisələrində aparılan tədqiqatlar əsasən, "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər", "Su ehtiyatlarından səmərəli istifadəyə dair Milli Strategiya", "2019-2030-cu illər üçün Azərbaycan Respublikasının Məşğulluq Strategiyası", ölkə başçısının "Azərbaycan Milli Elmlər Akademiyasının 80 illiyinin qeyd edilməsi haqqında" Sərəncamı, "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı", "Konstitusiya və Suverenlik İli", AMEA-nın Ümumi yığıncağının və Rəyasət Heyətinin aidiyyəti qərarlarının icrasına istiqamətlənib.

Akademik İbrahim Quliyev qeyd edib ki, 2025-ci ildə AMEA-nın Yer Elmləri Bölməsinin əhatə dairəsində olan elmi müəssisələrdə 15 problemi əhatə edən 44 mövzu, 56 elmi tədqiqat işi, 15 mərhələ üzrə elmi tədqiqat işi yerinə yetirilmiş, 11 mövzu, 20 elmi-tədqiqat işi və 7 mərhələ başa çatdırılmışdır. Hesabat ilində YEB-in əhatə dairəsində olan elmi müəssisələrdə 40-dan çox mühüm nəticə alınmış, təsərrüfat müqaviləsi əsasında 43 elmi-tətbiqi iş yerinə yetirilmişdir.

Diqqətə çatdırılıb ki, nəticələr əsasən, Qarabağ və Şərqi Zəngəzur, Böyük Qayıdış, Xəzər dənizi akvatoriyasında karbohidrogen resurslarının qiymətləndirilməsi, qazkondensat yataqlarının işlənmə prosesinin təkmilləşdirilməsi, bərpa olunan enerji mənbələrinin, Xəzər dənizinin akvatoriyasında Günəş, külək və dalğa enerji potensialının məkan və zaman paylanmasının və bu enerji növlərinin istifadə texnologiyalarının araşdırılması, aktiv geodinamik proseslərin öyrənilməsi, Kür hövzəsində kosmik peyk məlumatları ilə izlənilmiş qırılma sürüşməsi, Azərbaycandan uzaq zəlzələlərin törətdiyi yer qabığı deformasiyası: neft-qaz və palçıq vulkanı sahələrinin aktivliyi, Xəzər dənizinin səviyyəsinin dəyişməsi və sahil dinamikasının tədqiqi, ölkənin su ehtiyatlarının idarə edilməsinin təkmilləşdirilməsi və alternativ su mənbələrindən istifadə praktikasının genişləndirilməsi kimi aktual mövzuları əhatə edib. Alim vurğulayıb ki, süni intellekt texnologiyalarının tətbiq edilməsi əsasında karbohidrogen sistemləri və neft-qaz yataqlarının modelləşdirilməsi və rəqəmsal əkizlərinin yaradılması yolu ilə Cənubi Xəzər hövzəsinin hərtərəfli geoloji və geofiziki modelini əks etdirən interaktiv rəqəmsal xəritələr toplusu olan, analitik modulları birləşdirən və trans-dissiplinar tədqiqatlar, elmi təhlillər və resursların davamlı idarə edilməsi üçün nəzərədə tutulmuş "Digital Caspian" interaktiv məlumat bazası hazırlanıb.

Məruzəçi qeyd edib ki, beynəlxalq Scimago elmi reytinqində müvafiq göstəricilərə əsasən, Azərbaycan Yer elmləri həm dünya üzrə, həm də aid edildiyi Şərqi Avropa ölkələri qrupunda mövqelərinin dinamik yüksəlişi son beş il ərzində davamlı və stabildir. Azərbaycanın geofizika elmi 2024-cü ilin yekunlarına görə 200-ə yaxın ölkə arasında 36-cı, geomühəndislik elmi 41-ci, geologiya elmi 47-ci mövqedədirlər.

Bölmənin elmi müəssisələrinin nəşr fəaliyyəti barədə məlumat verən akademik İbrahim Quliyev hesabat ilində Yer Elmləri Bölməsinin əhatə dairəsində olan elmi müəssisələrdə 9 monoqrafiya (1-i xaricdə), 16 kitab və 6 dərslik, 264 məqalə (188-i xaricdə), 117 tezisin (78-i xaricdə) nəşr edildiyini, onlardan 115-nin "Web of Science" və "Scopus" bazasında olan impakt faktorlu jurnallarda işıq üzü gördüyünü diqqətə çatdırıb. Qeyd edib ki, hesabat dövründə "Azərbaycanın Paleontoloji Atlası", "Azərbaycanın Yer elmləri 80 illik zaman kəsiyində - zəngin və şərəfli tarixin səhifələri", "Qarabağ və Şərqi Zəngəzur. Geologiya və mineral resurslar", "Qarabağın turizm-rekreasiya potensialı", "Qarabağ iqtisadi rayonunun qədim yurd yerləri və toponimlərinin izahlı lüğəti", "Şərqi Zəngəzur oykonimlərinin coğrafiya, tarix və dilçilik baxımından tədqiqi" və s. qiymətli tədqiqat əsərləri ortaya qoyulub.

O, həmçinin bölmənin kadr potensialı və kadr hazırlığı, elm və təhsilin inteqrasiyasının gücləndirilməsi, bölmənin elmi jurnalları, beynəlxalq əməkdaşlıq, təltiflər, elektron elmin vəziyyəti, elmin maddi-texniki bazasının yenilənməsi və informasiya təminatı sisteminin təkmilləşdirilməsi, konfranslar, seminarlar və yubileylər və digər məlumatları diqqətə çatdırıb.







Daha sonra **Respublika Seysmoloji Xidmət Mərkəzinin baş direktoru AMEA-nın müxbir üzvü Qurban Yetirmişli** RSXM-in 2025-ci il üzrə elmi və elmi-təşkilati fəaliyyəti haqqında hesabatı təqdim edib. Bildirib ki, 2025-ci ildə AMEA nəzdində RSXM-də 3 problemi əhatə edən 5 mövzu, 13 elmi-tədqiqat işi yerinə yetirilib. Mərkəzin əməkdaşları 4 (beynəlxalq və yerli) qrant layihələrində iştirak ediblər.

Hesabat ilində AMEA nəzdində RSXM-də 47 məqalə (12-si xaricdə), 19 tezis (12-si xaricdə) nəşr edilib. Nəşr edilən məqalələrdən 9-u Web of Science və Scopus bazasında olan impakt faktorlu jurnallarda işıq üzü görüb.



Qeyd edib ki, hesabat dövründə ukraynalı mütəxəssislərlə birgə "Qafqazda və Mərkəzi Asiyada Seysmik Şəbəkənin Genişləndirilməsi", belaruslu alimlərlə birgə "Təbii geodinamik amillərin radon emissiyasının dinamikasına təsirinin öyrənilməsi", eləcə də "Qarabağ ərazisində seysmikliyin səciyyəvi xüsusiyyətləri və potensial güclü zəlzələ ocaqlarının məkan vəziyyətinin müəyyənlədirilməsi", "Günəş və Ay fiziki hadisələrinin məlumatları əsasında Azərbaycanda geodinamik proseslərin maqnitometriya üsulu ilə tədqiqi" layihələri üzrə işlər davam etdirilib.

Qurban Yetirmişli bildirib ki, 2025-ci ildə Bakı Televiziya Qülləsi (BTK) və ona bitişik ərazidə geoloji-geofiziki tədqiqatlar aparılıb və sürüşmə riskinin azadılması üzrə təkliflər verilib. Tədqiqat ərazisində zəif və mikro zəlzələlərin qeyd etmək məqsədi ilə lokal monitorinq sistemi də qurulub.

Məruzəçi diqqətə çatdırıb ki, AMEA nəzdində Respublika Seysmoloji Xidmət Mərkəzi EMSC (Avropa-Aralıq dənizi Seysmoloji Mərkəzi), IRIS (Birləşmiş Seysmoloji Araşdırmalar İnstitutu), ORFEUS (Avropa Seysmoloji Müşahidə və Araşdırmaları Mərkəzi), ESC (Avropa Seysmoloji Komissiyası), EGU (Avropa Geofiziklər Birliyi) və AGU (Amerika Geofiziklər Birliyi) kimi beynəlxalq təşkilatların həqiqi üzvüdür. Həmçinin vurğulayıb ki, RSXM 30-dan çox ölkənin seysmoloji və geofiziki institutları ilə - GFZ Geoelmlər üzrə Almaniya Araşdırmalar Mərkəzi, Lawrence Livermore Milli Laboratoriyası (ABŞ), Berkeley Laboratoriyası (ABŞ), Missuri Universiteti (ABŞ), Viktoriya Universiteti (Kanada), Oksford Universiteti (Böyük Britaniya), Türkiyə Daxili İşlər Nazirliyinin Fövqəladə Halların İdarə Edilməsi İdarəsinin Zəlzələ Tədqiqatı Departamenti, İsrail Geofiziki İnstitutu, Cənubi Afrika Respublikasının Pretoriya Universitetinin Təbii Təhlükə Mərkəzi və s. sıx əməkdaşlıq edir. Alim 2025-ci il ərzində Qazaxıstan Respublikası Fövqəladə Hallar Nazirliyinin Seysmoloji Müşahidə və Tədqiqatlar üzrə Milli Elmi Mərkəzi ilə elmi əməkdaşlıq haqqında razılaşma protokolunun imzalandığını da söyləyib.

Baş direktor, həmçinin Mərkəzin kadr potensialı və kadr hazırlığı, elm və təhsilin inteqrasiyasının gücləndirilməsi, elmin populyarlaşdırılması istiqamətində atılan addımlar, qrantlar və təltiflər, elektron elmin vəziyyəti, Vikipediya Virtual Ensiklopediyasında, eləcə də müəssisənin saytı və sosial şəbəkə hesablarının, "Seismoprognosis observations in the territory of Azerbaijan" jurnalının fəaliyyəti barədə məlumatları diqqətə çatdırıb.

Sonra Şəki REM-in 2025-ci il üzrə elmi və elmi-təşkilati fəaliyyəti haqqında hesabatı dinlənilib. Hesabatı Mərkəzin direktoru **fizika üzrə fəlsəfə doktoru Yusif Şükürlü** təqdim edərək bildirib ki, hesabat ilində Şəki REM-də 6 yeni prioritet istiqamətdə, 11 mövzu üzrə 19 elmi-tədqiqat işi yerinə yetirilib, 25 mühüm nəticə əldə olunub.

Y.Şükürlü çıxışında "Konstitusiya və Suverenlik ili", "Azərbaycan Respublikasında Rəqəmsal İnkişaf Konsepsiyası", eləcə də "Üzeyir Hacıbəylinin 140 illiyinin qeyd edilməsi haqqında", "Bəxtiyar Vahabzadənin 100 illik yubileyinin qeyd edilməsi haqqında", "Seyid Əzim Şirvaninin 190 illiyinin qeyd edilməsi haqqında", "Fətəli xan Xoyskinin 150 illik yubileyinin keçirilməsi haqqında", "Birinci Türkoloji Qurultayın 100 illik yubileyinin keçirilməsi haqqında" ölkə başçısının sərəncamlarından irəli gələrək Mərkəzdə görülmüş işləri diqqətə çatdırıb.

Məruzəçi qeyd edib ki, Mərkəz əməkdaşlarının hesabat dövründə 11-i xaricdə olmaqla 24 məqaləsi, 12-si xaricdə olmaqla 30 tezisi çap olunub. İşıq üzü görmüş məqalələrin 5-i Web of Science və Scopus bazalarında dərc edilib. 2025-ci ildə AMEA-nın Şəki REM-də "Şəki gülüşü və Qabrovo yumoru", "Bəxtiyar Vahabzadənin Sovet dövrü əsərlərində mətnaltı semantika" və s. olmaqla, ümumilikdə 4 kitab çap olunub.

Alim Mərkəzin əməkdaşları tərəfindən Şəki ədəbi mühitinin öyrənilməsi, Şəki və Qabrova lətifələrinin müqayisəli şəkildə araşdırılması, Şəki rayonunda yayılmış yabanı dərman bitkilərin tədqiqi, Qəbələ və Zaqatala rayonlarında tarixi əlyazmaların təhlili və s. istiqamətlərdə tədqiqatlar aparılaraq mühüm nəticələr əldə olunduğunu söyləyib.

Həmçinin bildirib ki, Özbəkistan Respublikasından gətirilmiş 8 tut ipəkqurdu cinsi üzərində yerinə yetirilən tədqiqatlar göstərmişdir ki, yaş baramanın ipəkliliyi Qulşan, Nafis, Yulduz, Asaka və Marvarid cinslərində 20,0-22,9 % olmuşdur. Yaş baramanın ipəkliliyi 2024-cü ilə nisbətən 2025-ci ildə Orzu, Quzal, Marxamat cinslərində 1,3% yüksək olmuşdur.

Yusif Şükürlü, həmçinin 2025-ci ilin tədqiqat planına uyğun olaraq Oğuz rayonunun bir neçə kəndlərinə ekspedisiyalar təşkil olunduğunu, xalq seleksiyasına aid tumlu, çəyirdəkli və qərzəkli meyvə nümunələrinin götürülərək Şəki REM-in təcrübə sahəsində calaqaltıya calaq edildiyini və hər bir nümunənin biomorfoloji göstəricilərinin təyin edildiyini vurğulayıb. Bundan əlavə, Şəki REM-də arxeoloji qazıntılar üçün Baş Şabalıd və Baş Küngüt kəndi ərazisinə ekspedisiyanın təşkil edildiyini və antik dövrə aid bir neçə torpaq, küp, erkən orta əsrlərə aid xristian daş qutu qəbirin aşkar edilərək tədqiqata cəlb olunduğunu deyib. Həmçinin Balakən, Zaqatala və Şəki rayonunun ucqar dağ bölgələrinə ekoturizmin qiymətləndirilməsi, çay yataqlarının monitorinqi məqsədi ilə ekspedisiyaların təşkil edildiyini diqqətə çatdırıb.

Alim, eyni zamanda Mərkəzin kadr potensialı və kadr hazırlığı, elm və təhsilin inteqrasiyasının gücləndirilməsi, beynəlxalq əməkdaşlıq, təltiflər, elektron elmin vəziyyəti barədə məlumatları təqdim edib.

İclasda təqdim olunan hesabatlar ətrafında **akademik Rasim Əliquliyev, AMEA-nın müxbir üzvü Rauf Qardaşov, professor Rza Mahmudov, coğrafiya elmləri doktoru Zaur İmrani, coğrafiya elmləri doktoru Səid Səfərov, texnika üzrə fəlsəfə doktoru, dosent Rauf Muradov, Sadıx Nəbiyev** və başqaları çıxış edərək əldə olunan mühüm nəticələrlə bağlı fikirlərini bildiriblər.

Daha sonra çıxış edən akademik İsa Həbibbəyli AMEA-nın Yer Elmləri Bölməsinin, AMEA nəzdində Respublika Seysmoloji Xidmət Mərkəzinin və Şəki Regional Elmi Mərkəzinin 2025-ci il üzrə fəaliyyətini yüksək qiymətləndirib, onların qarşısında duran vəzifələri diqqətə çatdırıb.

Müzakirələrdən sonra AMEA Rəyasət Heyətinin qərarı ilə Yer Elmləri Bölməsinin, AMEA nəzdində Respublika Seysmoloji Xidmət Mərkəzinin və Şəki REM-in 2025-ci ildəki elmi və elmi-təşkilati fəaliyyəti haqqında hesabatları təsdiq edilib, əldə olunmuş mühüm nəticələrin AMEA-nın illik hesabatına daxil edilməsi qərara alınıb.

# elmi nəticələr əldə edib

## *Elmi Mərkəzləri illik hesabat veriblər*

- **AMEA Humanitar Elmlər Bölməsi**
- **AMEA Naxçıvan Bölməsi**
- **AMEA Mərkəzi Elmi Kitabxanası**





**Yanvarın 19-da Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyətinin növbəti iclası keçirilib.**

Tədbirdə AMEA-nın prezidenti akademik İsa Həbibbəyli, Rəyasət Heyətinin üzvləri, Rəyasət Heyəti aparatının şöbə müdirləri, bölmənin üzvləri, bölmənin elmi müəssisələrinin direktorları və aidiyyəti şəxslər iştirak ediblər.

Əvvəlcə AMEA-nın Humanitar Elmlər Bölməsinin (HEB), AMEA-nın Naxçıvan Bölməsinin və AMEA Mərkəzi Elmi Kitabxanasının (MEK) 2025-ci il ərzində əldə etdiyi nailiyyətləri, nəşr olunan elmi əsər və kitabları əks etdirən sərgiyə baxış olub.

İclası giriş sözü ilə açan **akademik İsa Həbibbəyli** tədbirin gündəliyi barədə məlumat verib.

Akademik İsa Həbibbəyli qeyd edib ki, AMEA-nın elmi bölmələrinin, regional bölmələrinin və elmi mərkəzlərinin 2025-ci il üzrə fəaliyyətinə dair hesabatların müzakirə olunduğu Rəyasət Heyətinin iclasları elmi fəaliyyətin nəticələrinin sistemli şəkildə təqdim edilməsi və onların obyektiv dəyərləndirilməsi baxımından mühüm əhəmiyyət daşıyır.

AMEA rəhbəri vurğulayıb ki, Bölmələrin daxili hesabatlarından fərqli olaraq, Rəyasət Heyətinin iclaslarında təqdim olunan hesabatlar əvvəlcədən müzakirə olunaraq daha da təkmilləşdirilir. Bu mərhələdə faktların və rəqəmlərin daha geniş şəkildə təqdim olunması xüsusi önəm daşıyır. O, bölmələrdə müzakirə olunan hesabatların Rəyasət Heyətinin iclaslarına təqdim edilən hesabatlarla eyni məzmunu daşımamasının vacibliyini qeyd edib, Rəyasət Heyətinin iclaslarının yekun mərhələ olduğunu və burada yalnız əsas, mühüm elmi nəticələrin təqdim edilməli olduğunu bildirib.

Akademik İsa Həbibbəyli müasir rəqəmsal inkişaf mərhələsində hesabatların elmmetrik göstəricilər əsasında, arqumentləşdirilmiş və sistemli şəkildə təqdim olunmasını zəruri hesab edib. Vurğulayıb ki, təqdimat zamanı geniş və uzun izahlardan daha çox, əsas ideyaların, konkret nəticələrin və ölçülə bilən göstəricilərin təqdim olunmasına üstünlük verilməlidir.

Daha sonra akademik İsa Həbibbəyli AMEA-nın Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyevi 75 illik yubileyi münasibətilə təbrik edib və alimə AMEA-nın Rəyasət Heyətinin Fəxri Fərmanını təqdim edib.

O, akademik İsmayıl Hacıyevin həm elmi yaradıcılığı, həm də şəxsi keyfiyyətləri ilə seçilən, Azərbaycan elmində milli dövlətçilik tarixini araşdıran, bu sahədə çoxsaylı və sanballı elmi əsərlər ərsəyə gətirmiş görkəmli tarixşünas alimlərimizdən biri olduğunu vurğulayıb. Qeyd edib ki, akademik İsmayıl Hacıyevin tədqiqatlarında Azərbaycan dövlətçiliyinin əsas simaları və mühüm problemləri geniş şəkildə tədqiq olunub, bununla da Azərbaycan dövlətçilik tarixinin elmi salnaməsi yaradılıb.

Akademiya prezidenti bildirib ki, alimlərin bir qismi əsərlərində daha çox faktlara, sənədlərə, digər qismi isə nəzəri yanaşmalara və mülahizələrə əsaslanır. Akademik İsmayıl Hacıyevin yaradıcılığında isə bu iki istiqamətin vəhdəti özünü göstərir. Akademik İsmayıl Hacıyevin əsərləri fakt və sənədlərə əsaslanmaqla yanaşı, onların elmi-nəzəri şərhini və dərin təhlilini təqdim edir.

Sonra Humanitar Elmlər Bölməsinin (HEB) elmi katibi, **filologiya üzrə fəlsəfə doktoru Arzu Məmmədxanlı** Bölmənin hesabatını təqdim edib. Bildirib ki, sürətli sosial-iqtisadi inkişaf yolunda olan Azərbaycanda 2025-ci il humanitar elm sahələri üçün olduqca mühüm nailiyyətlətlə yadda qalıb. Azərbaycan Respublikası Prezidentinin xalqımızın milli-mənəvi dəyərlərinin qorunması, dilinin, ədəbiyyatının, mədəniyyətinin müasir dövrün tələbləri baxımından daha da araşdırılması və təbliği istiqamətindəki müvafiq Fərman və Sərəncamları, eləcə də Dövlət Proqramları 2025-ci ildə humanitar elm sahələrində aparılan əsas







konseptual fəaliyyət proqramı kimi qəbul edilib.

Prezident İlham Əliyevin "2025-ci ilin Azərbaycan Respublikasında "Konstitusiya və Suverenlik İli" elan olunması haqqında", "AMEA-nın 80 illik yubileyinin keçirilməsi haqqında", "Birinci Türkoloji Qurultayın 100 illik yubileyinin keçirilməsi haqqında", "Üzeyir Hacıbəylinin 140 illiyinin qeyd edilməsi haqqında", "Bəxtiyar Vahabzadənin 100 illik yubileyinin qeyd edilməsi haqqında", "Seyid Əzim Şirvaninin 190 illik yubileyinin qeyd edilməsi haqqında", "Azərbaycan milli mətbuatının 150 illik yubileyinin keçirilməsi haqqında" , "Fikrət Qocanın 90 illiyinin qeyd edilməsi haqqında", "Yusif Səmədoğlunun 90 illiyinin qeyd edilməsi haqqında" Sərəncamlarına əsasən Bölmədə həyata keçirilmiş tədbirləri diqqətə çatdırılıb.

Qeyd edilib ki, dövlət başçısı AMEA-nın 80 illik yubiley tədbirindəki parlaq nitqində, eləcə də yanvarın 5-də yerli televiziya kanallarına müsahibəsində Azərbaycan dilinin saflığının qorunması istiqamətində humanitar elmlər sahəsində çalışan alimlərin üzərinə ciddi vəzifələr qoyub. Bu məqsədlə AMEA-nın Rəyasət Heyətində Humanitar Elmlər Bölməsinin təşkilatçılığı ilə "Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Akademiyanın 80 illik yubiley tədbirindəki nitqində Azərbaycan dili ilə əlaqədar qarşıya qoyduğu tələblər və AMEA-nın vəzifələri" mövzusunda yığıncaqda alimlərin məruzələri, rəy və təklifləri dinlənilib. Bundan başqa, Milli Məclisdə "Azərbaycan dilinin dövlət dili kimi İnkişaf Strategiyası: mövcud vəziyyət və perspektivlər" mövzusundakı tədbirdə, eləcə də Azərbaycan Yazıçılar Birliyində təşkil olunan "Dilimiz - kimliyimiz" mövzusunda müşavirədə AMEA-nın bir sıra alimi iştirak edərək Akademiyanın dövlət dili siyasətinə elmin dəstəyi, normativ bazanın elmi əsaslarla hazırlanması və dövrün çağırışlarına uyğun yenilənməsi, Azərbaycan toponimlərinin qorunması ilə bağlı fikirlərini bildiriblər. Bölmənin alimləri mütəmadi olaraq dilimizin qorunması ilə bağlı Televiziya kanallarına müsahibələr verib, dövri mətbuatda məqalələr dərc etdiriblər.

Diqqətə çatdırılıb ki, hesabat ilində HEB-in 5 iclası və 2 Ümumi yığıncağı keçirilib, iclaslarda 139 məsələyə baxılıb. 2025-ci ildə Bölmə müəssisələrində 6 elmi istiqamət üzrə, 34 problemi əhatə edən 72 mövzu, 483 elmi tədqiqat işi yerinə yetirilib. 72 mövzunun 35-i, 483 işin 319-u tamamlanıb. HEB-in 5 elmi tədqiqat müəssisəsi tərəfindən 15 mühüm elmi nəticə əldə edilib. Eləcə də AMEA-nın tabeliyində olmayan humanitar yönümlü müəssisələr 2025-ci ildəki mühüm nəticələri təqdim ediblər. Elm və Təhsil Nazirliyinin 16, Mədəniyyət Nazirliyinin 7 mühüm nəticəsi hesabata daxil edilib.



Bundan başqa, Qarabağ Universitetinin də mühüm nəticəsi Bölməyə təqdim olunub.

Bildirilib ki, 2025-ci ildə elmi-tədqiqat müəssisələrində 180 kitab (2-si xaricdə), 95 monoqrafiya (15-i xaricdə), 2155 məqalə və tezis (366-sı xaricdə) çap olunub. İmpakt faktorlu jurnallarda əməkdaşların 10 məqaləsi işıq üzü görüb. HEB-in alimlərinin elmi əsərlərinə olan istinadların ümumi sayı 1062-dir. Həmçinin elmi jurnallarda dərc olunan 958 məqaləyə DOI (Rəqəmsal Obyekt İdentifikatoru) identifikatoru verilib. Eyni zamanda, Bölmə əməkdaşları tərəfindən hesabat ilində 12 dərslik və 1 dərs vəsaiti nəşr edilib.

Hesabat ilində elmi-tədqiqat müəssisələri ilə beynəlxalq qurumlar arasında 9 sənədin imzalanıb ki, onun da 7-si türkdilli dövlərlərin akademik qurumları ilə bağlanıb.

Həmçinin Bölmənin kadr potensialı və kadr hazırlığı, elmin populyarlaşdırılması istiqamətində atılan addımlar, təltiflər və s. barədə məlumatları təqdim edilib.

Daha sonra AMEA-nın Naxçıvan Bölməsinin 2025-ci il üzrə elmi və elmi-təşkilati fəaliyyətinin yekunlarına həsr olunmuş hesabat dinlənilib. Hesabatı Bölmənin sədri, **akademik İsmayıl Hacıyev** təqdim edərək bildirib ki, ötən il ərzində Bölmənin elmi müəssisələri Azərbaycan Respublikası Prezidentinin, Nazirlər Kabinetinin, AMEA Rəyasət Heyətinin, eləcə də Naxçıvan Muxtar Respublikasının aidiyyəti dövlət qurumlarının tapşırıq və göstərişlərinə uyğun olaraq fəaliyyət göstərib, elmi-tədqiqat işlərinin təşkili və icrası təmin olunub.

Akademik İsmayıl Hacıyev qeyd edib ki, 2025-ci ildə AMEA-nın Naxçıvan Bölməsində 3 elmi istiqamət üzrə, 3 problem çərçivəsində 17 elmi iş üzrə 36 mərhələdə tədqiqatlar aparılıb və bu tədqiqatlar nəticəsində 6 mühüm elmi nəticə əldə olunub.

Hesabatda arxeologiya, tarix, dilçilik, folklorşünaslıq və mədəniyyətşünaslıq sahələrində aparılan araşdırmaların əsas nəticələri ümumiləşdirilərək təqdim edilib, əldə olunan nəticələrin elmi əhəmiyyəti və praktik dəyəri diqqətə çatdırılıb.

Bildirilib ki, hesabat dövründə Bölmənin elmi müəssisələrinin əməkdaşları tərəfindən 9 monoqrafiya, 13 kitab, 288 elmi məqalə və konfrans materialları nəşr olunub, bu nəşrlərin bir qismi xarici ölkələrdə dərc edilib.

Eyni zamanda, bölmədə elmi kadr hazırlığı sahəsində də mühüm nəticələr əldə olunub, Dissertasiya Şurasında müdafiələr keçirilib, elmi dərəcələrin verilməsi prosesi uğurla davam etdirilib. İl ərzində respublika və beynəlxalq səviyyəli elmi konfransların təşkili, eləcə də beynəlxalq elmi tədbirlərdə iştirak bölmənin elmi fəaliyyətinin mühüm istiqamətlərindən biri olub.

Akademik İsmayıl Hacıyev, həmçinin AMEA-nın Naxçıvan Bölməsinin beynəlxalq əməkdaşlıq əlaqələrinin genişləndirilməsi, elm və təhsilin inteqrasiyasının gücləndirilməsi, gənc tədqiqatçıların elmi fəaliyyətə cəlb olunması, elmi tədbirlərin təşkili və elmin cəmiyyətə təqdim olunması istiqamətində həyata keçirdiyi fəaliyyətləri də diqqətə çatdırıb.

Tədbirdə Mərkəzi Elmi Kitabxananın 2025-ci il üzrə elmi və elmi-təşkilati fəaliyyəti haqqında hesabatı **MEK-in direktoru, texnika elmləri doktoru Hüseyn Hüseynov** təqdim edib.

Məruzəçi bildirib ki, kitabxananın fəaliyyətinin əsas istiqamətlərini fondların zənginləşdirilməsi və rəqəmsallaşdırılması, oxuculara informasiya xidmətlərinin göstərilməsi, elmi tədqiqatların informasiya ilə təmin olunması, eləcə də kitabxana-informasiya sistemində müasir texnologiyaların və süni intellektin tətbiqi təşkil edir. O, həmçinin beynəlxalq əməkdaşlığın genişləndirilməsi, elmi və mədəni tədbirlərin təşkili, elmi nəşrlərin hazırlanması və maarifləndirici layihələrin həyata keçirilməsinin də əsas fəaliyyət istiqamətləri sırasında olduğunu qeyd edib.

Bildirilib ki, Prezident İlham Əliyevin müvafiq sərəncamlarının icrası çərçivəsində 2025-ci ildə "Konstitusiya və Suverenlik İli" ilə əlaqədar Mərkəzi Elmi Kitabxana tərəfindən bir sıra məqsədyönlü tədbirlər həyata keçirilib, mövzuya dair biblioqrafik göstərici nəşr olunub, virtual və ənənəvi sərgilər, eləcə də lektoriyalar təşkil edilib. Eyni zamanda, "Azərbaycan Milli Elmlər Akademiyasının 80 illiyinin qeyd edilməsi haqqında" Sərəncama uyğun olaraq AMEA-nın 80 illik yubileyi münasibətilə MEK-də silsilə tədbirlər keçirilib, "AMEA 80: Elmi irs və inkişaf" adlı sərgilər təşkil olunub, ensiklopedik materiallar elmi baxımdan yenidən işlənib.

Hesabatda qeyd olunub ki, ötən il Mərkəzi Elmi Kitabxananın fəaliyyətinin 100 illiyi tamam olub və bu yubiley münasibətilə "MEK 100: Tarix və müasirlik" mövzusunda virtual və ənənəvi sərgilər təşkil edilib, "Rəqəmsal dövrdə kitabxana-informasiya fəaliyyətində innovasiyalar" mövzusunda beynəlxalq elmi konfrans keçirilib, yubileyə həsr olunmuş nəşrlər çap olunub və sənədli film hazırlanıb.

Bununla yanaşı, Avtomatlaşdırılmış Kitabxana İnformasiya Sistemi əsasında elektron kitabxana və onlayn xidmətlər genişləndirilib, on minlərlə tam mətnli nəşr elektron bazaya daxil edilib, inklüziv oxucular üçün xüsusi resurslar istifadəyə verilib, həmçinin MEK-də süni intellekt əsaslı səsli axtarış sistemi tətbiq olunub.

İclasda təqdim olunan hesabatlar ətrafında **Azərbaycanda Atatürk Mərkəzinin direktoru, akademik Nizami Cəfərov, Əlyazmalar İnstitutunun direktoru, akademik Teymur Kərimli, Memarlıq və İncəsənət İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Ərtegin Salamzadə, Dilçilik İnstitutunun direktoru, professor Nadir Məmmədli və Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun baş elmi işçisi, professor Qəzənfər Paşayev** çıxış edərək əldə olunmuş mühüm elmi nəticələrlə bağlı fikirlərini bildiriblər.

Daha sonra çıxış edən akademik İsa Həbibbəyli AMEA-nın Humanitar Elmlər Bölməsinin, AMEA-nın Naxçıvan Bölməsinin və AMEA Mərkəzi Elmi Kitabxanasının 2025-ci il üzrə fəaliyyətini yüksək qiymətləndirib, onların qarşısında duran vəzifələri diqqətə çatdırıb.

Müzakirələrdən sonra AMEA Rəyasət Heyətinin qərarı ilə Humanitar Elmlər Bölməsinin, AMEA-nın Naxçıvan Bölməsinin və MEK-in 2025-ci ildəki elmi və elmi-təşkilati fəaliyyəti haqqında hesabatları təsdiq edilib, əldə olunmuş mühüm nəticələrin AMEA-nın illik hesabatına daxil edilməsi qərara alınıb.

İclasa yekun vuran akademik İsa Həbibbəyli Azərbaycan dilinin saflığının qorunması, Qarabağda və ətraf ərazilərdə prioritet istiqamətlərdə yeni elmi tədqiqatların aparılması, İraq-türkman yazılı ədəbiyyatına dair araşdırmaların sayının artırılması məsələlərinə toxunub. O, institut və təşkilatların saytlarında ingilis və rus dillərində xəbərlərin yayımlanmasının Azərbaycan alimlərinin xarici ölkələrdə tanınması baxımından önəmini qeyd edərək, bu istiqamətlərə daha çox diqqət yetirilməsinin vacibliyini önə çəkib.

AMEA-da gənclər siyasətinə xüsusi önəm verildiyini deyən akademik İsa Həbibbəyli AMEA-nın Gənc Alim və Mütəxəssislər Şurasının bazasında "Gənclər Akademiyası"nın təsis edildiyini, əsasnaməsinin təsdiqləndiyini və qurumun ilk iclasının keçirildiyini söyləyib. O, həmçinin beynəlxalq yüksək impakt faktorlu jurnallarda fundamental elmi məqalələrin sayının artırılmasının müasir dövrün tələbi olduğunu və dünya elminə inteqrasiya baxımından xüsusi əhəmiyyət daşıdığını vurğulayıb.

# AMEA 2025-ci ildə mühüm elmi nəticələr əldə edib

## ● AMEA-nın Biologiya və Tibb Elmləri Bölməsi

## ● Lənkəran Regional Elmi Mərkəzi



**Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyətinin AMEA-nın Biologiya və Tibb Elmləri Bölməsinin (BTEB) və Lənkəran Regional Elmi Mərkəzinin (LREM) 2025-ci il üzrə illik hesabatlarına həsr olunmuş iclası keçirilib.**

Tədbirdə AMEA-nın prezidenti akademik İsa Həbibbəyli, Rəyasət Heyətinin üzvləri, AR Milli Məclisinin Səhiyyə Komitəsinin sədri akademik Əhliman Əmiraslanov, Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin direktor müavini, Sumqayıt Dövlət Universitetinin rektoru vəzifəsini icra edən AMEA-nın müxbir üzvü Əminağa Sadıqov, eləcə də Səhiyyə, Kənd təsərrüfatı nazirliklərinin, digər dövlət orqanlarının tabeliyində fəaliyyət göstərən müvafiq elmi müəssisələrin, ali təhsil ocaqlarının nümayəndələri və aidiyyəti şəxslər iştirak ediblər.

İclasdan öncə AMEA-nın Biologiya və Tibb Elmləri Bölməsinin əhatə etdiyi institutlarda, Lənkəran Regional Elmi Mərkəzində, həmçinin kənd təsərrüfatı və tibb müəssisələrində 2025-ci ildə əldə olunan mühüm elmi nəticələri əks etdirən sərgiyə baxış keçirilib.

Tədbiri **AMEA-nın prezidenti akademik İsa Həbibbəyli** açaraq iclasın gündəliyi barədə məlumat verib.

İclasda çıxış edən akademik İsa Həbibbəyli bu gün Azərbaycan elminin ölkə Prezidenti cənab İlham Əliyevin qarşıya qoyduğu yüksək tələblər səviyyəsində inkişaf etdirilməsinin əsas prioritetlərdən olduğunu vurğulayıb. Akademik İsa Həbibbəyli qeyd edib ki, müxtəlif elm sahələri üzrə təqdim olunan hesabatlar ötən illərlə müqayisədə, statistik göstəricilər baxımından müsbət dinamikanı nümayiş etdirir. Belə ki, impakt faktorlu jurnallarda çap olunan elmi məqalələrin sayının artması, fundamental və tətbiqi tədqiqatların nəticələri, səmərələşdirici təkliflər və patentlər Azərbaycan elminin ardıcıl inkişaf etdiyini əyani şəkildə göstərir. Hesabatlardan əvvəl təşkil olunan sərgilərdə nümayiş etdirilən elmi məhsullar, tədqiqat nəticələri və nəşrlər də ölkə elminin mövcud prioritetlərini və inkişaf istiqamətlərini aydın şəkildə əks etdirir.

AMEA prezidenti vurğulayıb ki, ölkə başçısının elm qarşısında müəyyən etdiyi mühüm vəzifələr elmi müəssisələr tərəfindən mərhələli və məsuliyyətli şəkildə icra olunur, bu da elmdə müşahidə olunan inkişaf meyillərini və əldə edilən mühüm nəticələri aydın görməyə imkan verir. Bildirib ki, iclasda dinləniləcək məruzələr və aparılacaq müzakirələr tədqiqatların daha da dərinləşdirilməsinə və yeni istiqamətlərin müəyyənləşdirilməsinə mühüm töhfə verəcək.

Akademik İsa Həbibbəyli diqqətə çatdırıb ki, bölmələrin daxili hesabatlarından fərqli olaraq, Rəyasət Heyətinin iclaslarında təqdim olunan hesabatlar daha ümumiləşdirilmiş xarakter daşıyır və ölkə miqyasında əhəmiyyət kəsb edən əsas elmi nailiyyətləri əhatə edir. Bir neçə bölmənin hesabatının eyni iclasda müzakirə olunması isə elmi nailiyyətlərin daha geniş auditoriyaya çatdırılmasına, elmin populyarlaşdırılmasına, müəssisələr arasında qarşılıqlı əməkdaşlığın gücləndirilməsinə və birgə fəaliyyət üçün yeni imkanların formalaşdırılmasına xidmət edir. Bu format alimlərin bir-birinin tədqiqatları ilə yaxından tanış olmasına, dialoqun genişlənməsinə və qəbul olunan ümumiləşdirici qərarların elmi mühitdə real nəticələrə çevrilməsinə şərait yaradır.

Daha sonra akademik İsa Həbibbəyli Kənd Təsərrüfatı Nazirliyinin Bitki Mühafizə və Texniki Bitkilər Elmi-Tədqiqat İnstitutunun direktoru AMEA-nın müxbir üzvü, professor İbrahim Cəfərovun 70 illik yubileyinin qeyd olunduğunu bildirib. O, alimin Azərbaycan aqrar elminin inkişafındakı mühüm xidmətlərini, yüksək idarəçilik və təşkilatçılıq qabiliyyətini, eləcə də elm və təhsilin inkişafına verdiyi sanballı töhfələri xüsusi vurğulayıb.

AMEA rəhbəri professor İbrahim Cəfərovun 70 illik yubileyi və uzun illər ərzində apardığı səmərəli elmi və elmi-təşkilati fəaliyyətinə görə AMEA Rəyasət Heyətinin qərarı ilə "AMEA-nın döş nişanı" ilə təltif olunduğunu diqqətə çatdırıb və mükafatı alimə təqdim edib.

Sonra **AMEA-nın vitse-prezidenti, Biologiya və Tibb Elmləri Bölməsinin Elmi şurasının sədri akademik İradə Hüseynova** bölmənin 2025-ci il üzrə elmi və elmi-təşkilati fəaliyyəti haqqında hesabatını təqdim edib.

Akademik İradə Hüseynova bildirib ki, hesabat ilində ölkə başçısının Fərman və sərəncamları, Nazirlər Kabinetinin qərar və sərəncamları, dövlət proqramları, strategiyalar, milli fəaliyyət planları və tədbirlər planlarının, o cümlədən "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı", "Azərbaycan Respublikasında qida təhlükəsizliyinin təmin olunmasına dair 2018-2025-ci illər üçün Dövlət Proqramı", "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası", "Uşaqların doğulanadək cins seçiminin qarşısının alınmasına dair 2020-2025-ci illər üçün Tədbirlər Planı", "Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi ilə bağlı əlavə tədbirlər", "Su ehtiyatlarından səmərəli istifadəyə dair Milli Strategiya" və s., "Azərbaycan Milli Elmlər Akademiyasının 2020-2025-ci illər üçün inkişaf proqramı", AMEA-nın Ümumi yığıncağı və Rəyasət Heyətinin qərarları ilə verilmiş tapşırıqların və AMEA rəhbərliyinin sərəncamlarının icrasına yönəldilmiş, dövlət proqramlarının və milli strategiyaların bəndləri üzrə bölmə və onun üzvləri tərəfindən görülmüş işlər haqda məlumatlar aidiyyəti üzrə təqdim edilib. Bundan əlavə, Azərbaycanın sosial-iqtisadi inkişafına dair 2030-cu ilə qədər reallaşdırılması planlaşdırılan beş milli prioritetdən biri "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" kimi müəyyən edilib və həmin prioritetə uyğun fəaliyyətlər icra olunub.









Həmçinin il ərzində AMEA-nın Lənkəran Regional Elmi Mərkəzində, AR Elm və Təhsil Nazirliyinin, AR Səhiyyə Nazirliyinin, AR Kənd Təsərrüfatı Nazirliyinin, digər dövlət orqanlarının tabeliyində fəaliyyət göstərən elm müəssisələrində, ali təhsil ocaqlarının müvafiq kafedralarında yerinə yetirilən tədqiqatların əlaqələndirilməsi həyata keçirilib.

Akademik İradə Hüseynova qeyd edib ki, ötən il BTEB tərəfindən tədqiqatlar müəyyən edilmiş 4 istiqamətdə - biomüxtəlifliyin, torpaq və su ehtiyatlarının müasir yanaşmalarla tədqiqi, bərpası, mühafizəsi, səmərəli istifadəsi, elektron məlumat bazaları və xəritələrinin yaradılması, bioloji proseslərin molekulyar-genetik və fiziki-kimyəvi əsasları, genom, proteom və metabolom tədqiqatları, yeni bio-, nano- və postgenom texnologiyalarının fundamental və tətbiqi əsaslarının işlənib hazırlanması, kompüter biologiyası, maşınöyrənmə üsullarının, süni intellektin biologiya, kənd təsərrüfatı və təbabətdə tətbiqi və patologiyaların fizioloji və molekulyar-genetik əsaslarının tədqiqi, yeni diaqnostika və müalicə üsullarının, dərman preparatlarının işlənib hazırlanmasında və reproduktiv təbabətdə yüksək texnologiyaların və kök hüceyrələrinin tətbiqi istiqamətində aparılıb.

Akademik İradə Hüseynova hesabat ilində Ümummilli Lider Heydər Əliyevin və akademik Zərifə xanım Əliyevanın anadan olmasının 102-ci ildönümünə, akademik Mustafa Topçubaşovun, AMEA-nın fəxri üzvü, professor İhsan Doğramacının yubileylərinə, eləcə də "Konstitusiya və Suverenlik İli"nə, AMEA-nın 80 illik yubileyinə, Qadınlar və Qızlar Elmdə Beynəlxalq Gününə həsr olunmuş "Tarix yaradan şəxsiyyət", "Böyük Ana-Alim-Qadın", "Rəqəmsal və GWAS əsaslı texnologiyaların tətbiqi ilə buğdanın yaxşılaşdırılması", "STEM sahəsində karyera imkanlarının üzə çıxarılması: elmdə qadının səsi", "Enerji, qida, ətraf mühit və iqlim təhlükəsizliyi sahəsində çağırışlar", "Yaşıl dünya, süni intellekt və müasir reallıqlar" mövzusunda konfransların, "Bilik yarışı" müsabiqəsinin, "COP29: Qlobal və milli çağırışlar, elmin vəzifələri" və s. kitabların təqdimat mərasimlərinin keçirildiyini söyləyib.

O, həmçinin hesabat dövründə akademik Zərifə xanım Əliyevanın müəllifi olduğu "Oftalmologiyanın aktual problemləri" əsərinin ilk dəfə ingilis dilində nəfis şəkildə nəşr edildiyini, o cümlədən bölmə üzvləri tərəfindən "Klinik onkologiya. Həkimlər üçün əsas rəhbərlik", "Onkoloji Ginekologiya", "Naxçıvan Muxtar Respublikasının təbiəti (Ali sporlu, çılpaqtoxumlu və örtülütoxumlu bitkilər)", "Hərbi Psixologiya və Hərbi Klinik Psixologiya", "AMEA-nın Biologiya və Tibb Elmləri Bölməsi: inkişaf tarixi və uğurları", "Akademik Mustafa Topçubaşovun biblioqrafiyası" və digər nəşrlərin işıq üzü gördüyünü deyib.

Akademik İradə Hüseynova ötən il bölmənin və onun müəyyən etdiyi istiqamətlər üzrə fəaliyyət göstərən tədqiqat müəssisələrinin elmi fəaliyyətinin əsas istiqamətləri sırasında Qarabağa "Elmin Böyük Qayıdışı"nın əhəmiyyətli yer tutduğunu deyib. BTEB və onun üzvləri İdarələrarası Mərkəzin Ekoloji məsələlər üzrə İşçi Qrupunun, eləcə də digər müvafiq işçi qruplarının işində, fəaliyyət proqramlarının icrasında, region üzrə monitorinqlərin aparılmasında fəal şəkildə iştirak ediblər. 2025-ci il ərzində "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı", Ekoloji məsələlər üzrə İşçi Qrupunun müfəssəl sahəvi planının (2021-2025-ci illər üzrə), "Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə dair elmi tədqiqat işləri ilə bağlı AMEA-nın vəzifələri haqqında" Tədbirlər planının müvafiq bəndlərinin icrası diqqət mərkəzində olub. Belə ki, işğaldan azad edilmiş ərazilərə BTEB-in əhatə etdiyi institutlar tərəfindən çoxsaylı ekspedisiyalar həyata keçirilib, nadir və itmək təhlükəsində olan bitki və heyvan növlərinin, torpaq və su ehtiyatlarının, içməli su mənbələrinin, meşə və digər ekosistemlərin monitorinqləri aparılıb.

Akademik İradə Hüseynova bildirib ki, bölmənin əhatə etdiyi institutlarda hesabat ilində 20 problem, 65 mövzu, 160 iş, 431 mərhələ üzrə tədqiqatlar aparılıb, 48 mövzu, 120 iş və 335 mərhələ tamamlanıb. Tibb müəssisələrində 26 problem, 141 mövzu (36-sı tamamlanıb) və 294 işi (72-si tamamlanıb) əhatə edən 361 (146-sı tamamlanıb) mərhələ üzrə tədqiqatlar həyata keçirilib. KTN üzrə isə isə 26 problem, 108 mövzu (31-i tamamlanıb) və 244 işi (66) əhatə edən 370 (234) mərhələ üzrə tədqiqatlar aparılıb. 2025-ci ildə biologiya, tibb, aqrar və ekologiya elmləri sahəsində alınmış çoxsaylı elmi nəticələr sırasından yalnız ən mühümləri (cəmi 37 nəticə) seçilib.

Bundan əlavə, hesabat dövründə BTEB-in əhatə etdiyi institutlar tərəfindən 1020 elmi əsər, o cümlədən 12 kitab (1-i xaricdə), 12 monoqrafiya (1-i xaricdə), 404 məqalə (266-sı xaricdə, onlardan 228-i indeksləşən bazalara, 145-i Web of Science və Scopus bazalarında, 68-i digər bazalarda), 592 tezis (162-i xaricdə) nəşr olunub. Əməkdaşların əsərlərinə 3190 istinad edilib.

Tibb yönümlü elmi tədqiqat və təhsil müəssisələri tərəfindən 4250 elmi əsər, o cümlədən 62 kitab (3-ü xaricdə), 25 monoqrafiya (6-sı xaricdə), 2015 məqalə (890-ı xaricdə, onlardan 457-i Web of Science və Scopus bazalarından olan jurnallarda), 2097 tezis (640-ı xaricdə) nəşr olunub, elmi əsərlərə 1262 istinad edilib.

Hesabat ilində AR Kənd Təsərrüfatı Nazirliyinin aqrar tədqiqat və təhsil müəssisələri tərəfindən 912 elmi əsər, o cümlədən 50 kitab (3-ü xaricdə), 4 monoqrafiya (1-i xaricdə), 554 məqalə (277-si xaricdə, onlardan 121-i Web of Science və Scopus bazalarında), 304 tezis (85-i xaricdə) nəşr olunub. Əməkdaşların əsərlərinə 1282 istinad edilib.

Akademik İradə Hüseynova, həmçinin bildirib ki, hazırda Stenford Universitetinin yüksək reytinq siyahısına düşmüş alimlərimizin siyahısında biologiya və tibb elmləri sahəsində çalışan AR ETN Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun beynəlxalq laboratoriyalarının rəhbərləri - Rusiya EA-nın müxbir üzvü Süleyman Allahverdiyev və professor Qərib Mürşüdov, AR ETN Genetik Ehtiyatlar İnstitutunun beynəlxalq laboratoriyasının müdiri Dr. Asəf Salamov, AR SN ET Tibbi Profilaktika İnstitutunun direktoru, tibb elmləri doktoru, professor Adil Allahverdiyev və Bakı Dövlət Universitetinin professoru Rövşən Xəlilovun adları var.

Məruzədə, o cümlədən bölmənin elmi nəşrləri, elmlə təhsilin inteqrasiyası, beynəlxalq əlaqələr, kadr hazırlığı, müəssisələrdə fəaliyyət göstərən beynəlxalq laboratoriyalar, elektron elmin vəziyyəti, təltiflər, patentlər, qrantlar və s. barədə məlumat verilib.

Sonra AMEA-nın Lənkəran Regional Elmi Mərkəzinin 2025-ci il üzrə elmi və elmi-təşkilati fəaliyyətinə dair hesabat dinlənilib.

Hesabatı **Mərkəzin direktoru vəzifəsinin səlahiyyətlərini müvəqqəti icra edən, tarix üzrə fəlsəfə doktoru Cəmil Quliyev** təqdim edərək bildirib ki, hesabat ilində Mərkəzin əməkdaşları tərəfindən aparılan elmi-tədqiqat işləri Azərbaycanın Cənub-Şərq regionunun tarixi, folkloru, yazılı ədəbiyyatı, etnoqrafiyası, arxeoloji və numizmatik abidələrinin öyrənilməsinə, həmçinin regionun sosial-mədəni və bioloji xüsusiyyətlərinin tədqiqinə həsr olunub.

Məruzəçi qeyd edib ki, 2025-ci ildə Lənkəran Regional Elmi Mərkəzində elmi tədqiqatlar 3 problem, 8 mövzu, 9 iş və 9 mərhələ üzrə aparılıb. İlk dəfə olaraq Cənub bölgəsi folklorunda şamanizm elementləri faktik materiallar əsasında araşdırılıb, Lənkəran-Astara bölgəsində Ümummilli Lider Heydər Əliyevin irsində milli ideologiya məsələləri tədqiq edilib. Eyni zamanda, Çay və subtropik bitkilər şöbəsinin təcrübə bazasında rayonlaşdırılmış çay sort və formalarında üzvi maye gübrəsinin məhsuldarlığa və keyfiyyətə təsiri öyrənilib. Bundan əlavə, Cənub bölgəsinin uzunömürlüləri Yaponiyanın İkiqay Ailə İnstitutu modeli ilə qarşılıqlı şəkildə tədqiq olunaraq ortaq fizioloji, bioloji və ekoloji faktorlar müəyyənləşdirilib.

Diqqətə çatdırılıb ki, Azərbaycan Respublikası Prezidentinin Fərman və Sərəncamlarının icrası, eləcə də Dövlət Proqramları çərçivəsində il ərzində Lənkəran REM-də 20 elmi və elmi-maarifləndirici tədbir - 2 konfrans, 11 seminar, 3 dəyirmi masa və 1 kitab təqdimatı keçirilib. Tədbirlərdə dövlət qurumlarının nümayəndələri, ali təhsil müəssisələrinin müəllim və tələbələri, region ziyalıları və ictimaiyyət nümayəndələri iştirak ediblər. İl ərzində AMEA-nın 80 illiyi, "Konstitusiya və Suverenlik İli", Milli Qurtuluş Günü, Ümummilli Lider Heydər Əliyevin irsi, milli mətbuatın yubileyi, görkəmli alim və yaradıcı şəxslərin həyat və fəaliyyəti ilə bağlı silsilə elmi tədbirlər təşkil olunub.

Bildirilib ki, 2025-ci ildə Lənkəran REM-in əməkdaşları tərəfindən ümumilikdə 40 elmi əsər - 26 məqalə və 14 tezis nəşr olunub. Onlardan 15 məqalə və 2 tezis xarici ölkələrdə, 11 məqalə və 12 tezis isə respublika daxilində çap edilib. AMEA-nın 80 illiyinə həsr olunmuş "Şimali Azərbaycanın Rusiya tərəfindən işğalı arxiv sənədlərdə (1813-1828)" adlı monoqrafiya nəşr edilib. Həmçinin Cənub bölgəsi folklorunda şamanizm elementlərinin tədqiqi, uzunömürlülük problemlərinin öyrənilməsi və digər istiqamətlər üzrə elmi məqalələr beynəlxalq elmi dövriyyəyə daxil edilib.

Məruzədə Lənkəran REM-in elm və təhsilin inteqrasiyası, elmin populyarlaşdırılması və gənclərin elmi fəaliyyətə cəlb olunması istiqamətində görülən işlər də vurğulanıb. Lənkəran Dövlət Universiteti və regionun digər təhsil müəssisələri ilə əməkdaşlıq çərçivəsində elmi seminarlar, görüşlər və maarifləndirici tədbirlər keçirilib.

Daha sonra hesabatlar üzrə müzakirələr aparılıb. **AR Milli Məclisinin Səhiyyə Komitəsinin sədri akademik Əhliman Əmiraslanov, Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin direktor müavini, Sumqayıt Dövlət Universitetinin rektoru vəzifəsini icra edən AMEA-nın müxbir üzvü Əminağa Sadıqov, Bakı Dövlət Universitetinin kafedra müdiri AMEA-nın müxbir üzvü Elşad Qurbanov, AR KTN Bitki Mühafizə və Texniki Bitkilər Elmi-Tədqiqat İnstitutunun direktoru AMEA-nın müxbir üzvü İbrahim Cəfərov və AMEA-nın müxbir üzvü Əlövsət Quliyev** çıxış edərək fikirlərini bildirib, hesabatları qənaətbəxş qiymətləndiriblər.

Sonda çıxış edən akademik İsa Həbibbəyli Qarabağda aparılan elmi tədqiqatların genişləndirilməsi, eləcə də müasir dünyanın problemlərindən olan su problemləri və qida təhlükəsizliyinə diqqətin artırılması, kartoqrafiya məsələlərinə xüsusi önəm verilməsinin vacibliyini vurğulayıb, Biologiya və Tibb Elmləri Bölməsinin və Lənkəran Regional Elmi Mərkəzinin əməkdaşlarının cari ildə də səmərəli fəaliyyət göstərəcəyinə inamını ifadə edib.

Daha sonra AMEA-nın Rəyasət Heyəti tərəfindən Biologiya və Tibb Elmləri Bölməsinin və Lənkəran Regional Elmi Mərkəzinin 2025-ci il üzrə illik hesabatı təsdiqlənib və müvafiq qərar qəbul olunub, bir sıra tapşırıqlar verilib.

# AMEA-nın kollektivi 20 Yanvar şəhidlərinin xatirəsini anıb



**Azərbaycan Milli Elmlər Akademiyasının kollektivi 20 Yanvar faciəsinin 36-cı ildönümü ilə əlaqədar Şəhidlər xiyabanını ziyarət edib.**

Elmi ictimaiyyətin nümayəndələri şəhidlərimizin məzarları üzərinə qərənfillər düzüb, onların əziz xatirəsini ehtiramla yad edib, ruhlarına dualar oxuyublar.

# Qəhrəmanlığın və qalibiyyətin qan yaddaşı



**AMEA-da 20 Yanvar - Ümumxalq Hüzn Gününə həsr olunmuş "Qəhrəmanlığın və qalibiyyətin qan yaddaşı" adlı ümumakademiya tədbiri keçirilib.**



AMEA Azad Həmkarlar İttifaqının təşkilatçılığı ilə keçirilən tədbirdə əvvəlcə Dövlət Himni səsləndirilib, Ulu Öndər Heydər Əliyevin və şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Tədbiri giriş sözü ilə açan AMEA-nın prezidenti akademik İsa Həbibbəyli 20 yanvar tarixinin xalqımızın qəhrəmanlıq salnaməsi olduğunu vurğulayıb. Akademik qeyd edib ki, Bakıya qoşun yeridilməsi və günahsız insanların qətlə yetirilməsi çökməkdə olan Sovet rejiminin daxili mənəvi iflasının və acizliyinin bariz nümunəsi idi.

Ümummilli lider Heydər Əliyevin həmin çətin günlərdə Moskvada verdiyi bəyanatın Azərbaycan həqiqətlərini dünyaya çatdıran ən kəsərli siyasi addım olduğunu xatırladan akademik İsa Həbibbəyli məhz bu cəsarətli bəyanatın ölkəmizdə milli azadlıq hərəkatının magistral yolunu müəyyən edərək, müstəqilliyə gedən yolu açdığını deyib.

Akademik çıxışında Şəhidlər Xiyabanının xalqımız üçün həm də müstəqillik və azadlıq mübarizəmizin əbədi ehramı və iftixar mənbəyi olduğu bildirib. Vurğulayıb ki, 20 Yanvar faciəsi tarixi və fəlsəfi baxımdan xalqımızın sarsılmaz iradəsini və milli varlığını bütün dünyaya nümayiş etdirən bir həqiqətdir.

Akademik İsa Həbibbəyli şəhidlərimizin tökülən qanının hədər getmədiyini, Prezident İlham Əliyevin rəhbərliyi ilə tarixi Zəfərimizin qazanıldığını, Azərbaycanın ərazi bütövlüyünün tam bərpa olunduğunu, bununla da şəhidlərimizin ali məqsədlərinin reallaşmış olduğu bildirib. Qeyd edib ki, müasir Azərbaycanın beynəlxalq arenada, o cümlədən Türk dünyasında artan nüfuzu və iqtisadi-siyasi gücü müstəqilliyimizin dönməzliyinin əsas təminatıdır.

Sonra çıxış edən Şərqşünaslıq İnstitutunun direktoru, akademik Gövhər Baxşəliyeva 20 Yanvar faciəsi zamanı xalqın içərisindən çıxan ziyalıların və sadə vətəndaşların ümumi mənafe naminə birləşməsini milli azadlıq hərəkatımızın ən ali fədakarlıq nümunəsi kimi qiymətləndirib. Qeyd edib ki, bu sarsılmaz birlik və xalqın ədalət səsi, həm müasir dövlətçilik modelimizin formalaşmasında həlledici rol oynayıb, həm də cəmiyyətimizin yenidən qurulmasına möhkəm zəmin yaradıb. Çıxışının sonunda o, Ümumxalq Hüzn Gününün xalqımızın iradəsini sınağa çəkən tarixi bir mərhələ olduğunu və bu fədakarlığın müstəqil Azərbaycanın sarsılmaz təməllərini təşkil etdiyini deyib.

AMEA AHİ-nin sədri, s.e.ü.f.d., dosent Sənan Həsənov çıxışında 20 Yanvar hadisələrini xalqın qəhrəmanlıq və sarsılmaz mübarizə əzminin zirvə nöqtəsi, milli mənliyimizin rəmzi kimi xarakterizə edib. Bildirib ki, günahsız insanlara qarşı tutulan qanlı divan totalitar Sovet rejiminin daxili qorxusunu və azadlıq hərəkatı qarşısında nə dərəcədə aciz qaldığını göstərirdi. S.Həsənov xüsusi olaraq vurğulayıb ki, Bakıya yeridilən 60 minlik sovet ordusu xalqın iradəsini sındıra bilmədi, əksinə, milli birliyə, müstəqilliyə gedən yolun dönüş nöqtəsinə çevrildi. Qeyd edib ki, bu vəhşət şair, yazıçı və alimlərimizin həm poeziyada, həm də elmi tədqiqat əsərlərində əbədiləşən qan yaddaşı, silinməz tarix oldu. Alim məhz Ulu Öndər Heydər Əliyevin siyasi cəsarəti, sarsılmaz iradəsi və xalqına olan sonsuz bağlılığı sayəsində bu faciənin əsl mahiyyətinin və Sovet rəhbərliyinin cinayətkar əməllərinin dünya ictimaiyyətinə çatdırıldığını bildirib.

Daha sonra AMEA Mülki Müdafiə Qərargahının rəisi Nizami Vəliyev, I Qarabağ müharibəsi şəhidi, Adgözəl Bəşirovun atası Aşur Bəşirov, Qarabağ müharibəsi qəhrəmanları fondunun rəhbəri, "Zəfər" ordeninə layiq görülmüş şəhid polkovnik Babək Səmidlinin bacısı Röksanə Səfərzadə və AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun Həmkarlar Təşkilatının sədri Asya Əhmədova çıxış edərək, 20 Yanvarın Azərbaycanın dövlətçilik şüurunun dirçəliş günü olduğunu vurğulayıblar. Bildiriblər ki, bu tarixi hadisə sadəcə bir təqvim günü deyil, nəsillərdən-nəsillərə ötürülən mənəvi güc mənbəyi və sarsılmaz vətənpərvərlik örnəyidir. Çıxışçılar bu fədakar mübarizənin 44 günlük Vətən müharibəsində qazanılan möhtəşəm Zəfərin mənəvi təməli olduğunu və torpaqlarımızın hər qarışının şəhidlərimizin əmanəti kimi qorunduğunu diqqətə çatdırıblar. Sonda qeyd olunub ki, milli birliyimizin rəmzinə çevrilən şəhidlərimizin xatirəsi həm dövlətimizin ali siyasətində, həm də xalqımızın qəlbində əbədi yaşayacaqdır.

Tədbirdə 20 Yanvara həsr olunmuş videoçarx nümayiş etdirilib.

Sonda akademik İsa Həbibbəyli şəhidlərimizin xatirəsinin hər bir azərbaycanlı üçün müqəddəs olduğunu və xalqımızın onların qəhrəmanlığını hər zaman yaddaşlarında yaşadacağını deyib.

# Nobel mükafatı laureatı, AMEA-nın fəxri üzvü Əziz Sancardan sevindirici xəbər

**Kimya üzrə Nobel mükafatı laureatı Əziz Sancar sürətlə irəliləyən və ölümcül beyin xərçəngi növü olan qlioblastoma üzərində komandası ilə birlikdə apardığı tədqiqatlar haqqında məlumat verib.**





Sancar siçanlarda ölümcül beyin şişlərini tamamilə aradan qaldıran yeni bir müalicə metodu hazırladığını açıqlayıb.

O, tədqiqatın ən azı iki il çəkəcəyini vurğulayıb:

"Əldə etdiyimiz elmi inkişaflar, əlbəttə ki, sevindirici və ümidvericidir".

Qeyd edək ki, Dr. Əziz Sancar və onun tədqiqat qrupu beyin xərçənginin müalicəsində bir irəliləyiş əldə ediblər.

Yeni hazırlanmış metod, sağlam hüceyrələrə zərər vermədən eksperimental tədqiqatlarda siçanlarda ölümcül beyin şişlərini uğurla aradan qaldırıb.

Tədqiqat müəyyən edib ki, "EdU" adlı bir molekul kimyaterapiyada tez-tez istifadə edilən Temozolomid (TMZ) ilə birlikdə tətbiq edildikdə, siçanlarda qlioblastoma şişləri tamamilə aradan qaldırılır.

Siçan təcrübələrində şişlərin cəmi 23 gün ərzində təmizləndiyi və ömrünün əhəmiyyətli dərəcədə artdığı aşkar edilib.

Elmi dünyada böyük ajiotaj yaradan bu tədqiqatın, xüsusən də müalicəsi olduqca çətin olan qlioblastoma xəstələri üçün yeni bir ümid qapısı açdığı deyilir.

Mütəxəssislər qeyd edirlər ki, bu, gələcəkdə insan sınaqlarına keçirilərsə, beyin xərçənginin müalicəsində əhəmiyyətli bir dönüş nöqtəsi ola bilər.

Lakin professor Sancar klinik sınaqlar üçün vaxt çərçivəsi göstərərək bildirib:

"İşimizə göstərdiyiniz maraq və tərif mesajlarınız üçün təşəkkür edirik. Bu tədqiqatda əldə etdiyimiz elmi irəliləyişlər, əlbəttə ki, fundamental elm baxımından məmnunedici və ümidvericidir.

Lakin, xüsusilə qeyd etmək istərdim ki, bu yaxınlarda eşitdiyiniz bu xoş xəbərdə qeyd olunan eksperimental uğurlar yalnız bu mərhələdə siçanlar üzərində əldə edilib.

Bu tapıntıların insanlar üçün təhlükəsiz və effektiv bir müalicəyə çevrilməsi üçün hərtərəfli klinik sınaqlar tələb olunur və bunun üçün ən azı iki il daha lazımdır.

Anlayışınız və davamlı dəstəyiniz üçün çox təşəkkür edirəm. Hörmətlə."

Nobel mükafatı laureatı, professor Əziz Sancar 2023-cü ildən Azərbaycan Milli Elmlər Akademiyasının fəxri üzvüdür. Azərbaycan Milli Elmlər Akademiyasında 31 may-6 iyun tarixlərində Nobel mükafatı laureatının iştirakı ilə "Əziz Sancar həftəsi" keçirilmişdir.

# AMEA Gənclər Akademiyasının ilk iclası

**AMEA-nın prezidenti akademik İsa Həbibbəylinin rəhbərliyi ilə Gənclər Akademiyasının ilk iclası keçirilib. İclasda Azərbaycan Milli Elmlər Akademiyasının Gənclər Akademiyasının idarə heyəti, strukturu və yeni tərkibi müəyyənləşdirilib.**



Akademik İsa Həbibbəyli Gənclər Akademiyasının yaradılmasının önəmindən və qarşıda duran vəzifələrdən danışıb, müvafiq tapşırıqlar verib. Qeyd edib ki, Gənclər Akademiyasının fəaliyyətinin təşkilində diqqət olunacaq məsələlər - regionlarda elmi gəncliyə dəstək, yay və qış məktəblərinin, eləcə də konfransların, seminar və ustad dərslərinin təşkili, beynəlxalq elmi əməkdaşlıqların gücləndirilməsi və s. kimi məsələlərin AMEA-nın başlatdığı yeniləşmə hərəkatının və bu hərəkatın davamı olaraq yeni islahatların aparılmasında prioritetlərdəndir.

İclasda Gənclər Akademiyasının strukturuna daxil edilən qurumlara rəhbər şəxslər də təyin olunub. Belə ki, filologiya elmləri doktoru, dosent Sərxan Xavəri Gənclər Akademiyasına elmi məsləhətçi təyin edilib. Gənclər Akademiyasının sədr müavini filologiya üzrə fəlsəfə doktoru Şəfa Əliyeva, Gənclər Akademiyasının Elmi-kütləvi tədbirlərin təşkili departamentinin müdiri filologiya üzrə fəlsəfə doktoru Orxan İsayev, Gənclər Akademiyasının Beynəlxalq Əməkdaşlıq Assosiasiyasının sədri filologiya üzrə fəlsəfə doktoru Arzu İsgəndərzadə, Gənclər Akademiyasının Rəqəmsal Mobillik Mərkəzinin müdiri isə Günel Əzimova təyin olunub.

İclasda Gənclər Akademiyasının elmi məsləhətçisi filologiya elmləri doktoru, dosent Sərxan Xavəri, sədri dosent Elmir Babayev, sədr müavini filologiya üzrə fəlsəfə doktoru Şəfa Əliyeva çıxış edərək Azərbaycan gəncliyinin nəyə qadir olduğunu göstərmək üçün Gənclər Akademiyasının əlindən gələni edəcəyini vurğulayıblar. Gənclər Akademiyasının struktur rəhbərləri Orxan İsayev, Arzu İsgəndərzadə və Günel Əzimova isə göstərilən etimada, elmi gəncliyə dəstəyə, diqqət və qayğıya görə AMEA rəhbərliyinə minnətdarlıqlarını bildiriblər. Gənc alimlər AMEA gənclər hərəkatının ölkədə və ölkədən kənarda əhəmiyyətli layihələrdə iştirakı üçün var gücü ilə çalışacaqlarını söyləyiblər.

İclasda AMEA-nın Rəyasət Heyəti aparatının İnsan resursları şöbəsinin müdiri filologiya üzrə fəlsəfə doktoru Aynur Mahmud və Təsərrüfat şöbəsinin müdiri Samir Hüseynov da iştirak ediblər.

# Elmin və şəxsiyyətin vəhdəti

**Son yüzillik ərzində Azərbaycan tarix elminin verdiyi ən böyük imtahanlardan biri milli dövlətçilik tariximizə münasibətin tədqiq edilib araşdırılması ilə əlaqədar olmuşdur. Məlum sovet ideologiyası SSRİ-yə daxil olan xalqların milli dövlətçilik tarixinin, görkəmli tarixi şəxsiyyətlərinin öyrənilib yeni nəsillərə çatdırılması məsələsini arxa plana keçirdiyi üçün uzun bir dövr ərzində bu mövzu nəinki diqqət mərkəzindən kənarda saxlanılmış, həm də tarixi keçmişin unutdurulması istiqamətində müvafiq ideoloji iş aparılmışdır.**



Sovet dövründə milli dövlətçilik ənənələri və ya tarixdə yaşamış adlı-sanlı dövlət xadimlərinin adları ən yaxşı hallarda vətənpərvərlik mövzusunda yazılmış publisist əsərlərdə çəkilməklə kifayətlənilmişdir. Bu mənada, milli dövlətçilik tarixi problemi özünün miqyası və missiyası, sistemi ilə müstəqillik dövrü Azərbaycan elminin əsas mövzularından biridir. Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin sədri, Əməkdar elm xadimi, akademik İsmayıl Hacıyev yeni tarixi şəraitdə Azərbaycan tarixşünaslıq elminin əsas aparıcı mövzularından biri olan milli dövlətçiliyin tarixi, böyük simaları və ənənələri probleminin görkəmli və fədakar tədqiqatçılarından biridir.

Müstəqillik illərində İsmayıl Hacıyevin "Naxçıvan Azərbaycanın milli dövlətçilik tarixində" mövzusunda uğurla müdafiə etdiyi doktorluq dissertasiyası (1999) və çap etdirdiyi sanballı monoqrafik tədqiqatlar geniş mənada ölkəmizin milli dövlətçilik ənənələri haqqında yazılmış qiymətli elmi əsərlərdir. Akademik İsmayıl Hacıyev Azərbaycanın çoxəsrlik milli dövlətçilik tarixində özünəməxsus yeri və rolu olan Naxçıvan məktəbinin tarixini və tanınmış simalarını sistemli şəkildə araşdırıb öyrənməklə Azərbaycan tarixinin bu istiqamətinin mükəmməl, ümumiləşdirilmiş və bütöv elmi mənzərəsini yaratmağa öz töhfəsini vermişdir.

Atabəylər dövlətindən Naxçıvan Çuxursəd bəylərbəyliyinə, Naxçıvan xanlığına, Naxçıvan mahalına, Araz-Türk Respublikasına, Naxçıvan MSSR-ə və nəhayət, Naxçıvan Muxtar Respublikasına qədər keçilmiş tarixi yolun, yaşanmış ictimai-siyasi hadisələrin akademik İsmayıl Hacıyev tərəfindən dərindən və əsaslı şəkildə tədqiq olunması əslində həm də ümumilikdə Azərbaycanın dövlətçilik tarixinin bütün əsas mərhələlər üzrə inkişaf proseslərinin müəyyənləşdirilərək tədqiq olunması deməkdir. Milli dövlətçilik tariximizin qeyd olunan əksər mərhələləri haqqında Azərbaycan tarixşünaslıq elmində müəyyən tədqiqatların olmasına baxmayaraq, İsmayıl Hacıyev heç kəsi təkrar etmədən, hər tarixi mərhələyə dair ciddi tədqiqatlar aparmaqla və mühüm əlavələr etməklə, tədqiq etdiyi mövzuda tam yeni forma və məzmuna malik olan fundamental elmi əsərlər meydana qoymuşdur.

Fikrimizcə, akademik İsmayıl Hacıyevin daha bir mühüm xidməti də milli dövlətçilik tariximizin inkişaf proseslərinin tədqiq olunmasının sistemini müəyyən etməsi ilə əlaqədardır. İsmayıl Hacıyevin tədqiqatlarında Azərbaycan dövlətçilik tarixi keçmiş sovet-marksist nəzəriyyəsindəki ictimai formasiyalar və siniflərin mübarizəsi təlimi ilə yox, ictimai-siyasi hadisələrlə tarixi şəxsiyyətlərin mübarizəsinin tarixi kimi müasir elmi metodologiya əsasında araşdırılıb ümumiləşdirilmişdir.

Ümumiyyətlə, humanitar elm sahələrindən hər hansı birinin tədqiqatçısı üçün, xüsusən də milli dövlətçilik ənənələrinin tarixçisindən ötrü zəruri olan aydın vətənpərvərlik mövqeyi ilə elmi obyektivlik meyarlarını qorumaq prinsipi İsmayıl Hacıyevin timsalında aydın şəkildə ifadə olunmuşdur. Akademik İsmayıl Hacıyev tarixçi alim kimi doğulub boya-başa çatdığı Culfa rayonundakı Xanəgah kəndinin vüqarına çevrilmiş məşhur Əlincə qalasının qürurunu öz tədqiqatlarında milli dövlətçilik tariximizlə birləşdirmişdir. İsmayıl Hacıyevin ata-baba ocağı olan qədim Xanəgah kəndinin bir tərəfində Əlincə yaddaşının, digər tərəfində isə Fəzlullah Nəimi əqidə bütövlüyünün özünəməxsus yer tutması onun şəxsiyyətini və tədqiqatçılıq mövqeyini müəyyən edən əsas faktora çevrilmişdir.

Akademik İsmayıl Hacıyev müasir dövrdə Azərbaycan tarixşünaslıq elminin məsuliyyətli və vətənpərvər yaradıcılarından biridir. Görkəmli tarixçi alimin əsərləri milli dövlətçilik tariximizə və Azərbaycan elminə məsuliyyətlə və şərəflə xidmət göstərməyə əsl nümunədir. Obrazlı şəkildə belə də demək olar ki, akademik İsmayıl Hacıyev Azərbaycanın dövlətçilik tarixinin Şəmsəddin Eldənizdən Heydər Əliyevə və İlham Əliyevə qədərki çoxəsrlik və fundamental tarixi salnaməsini yaratmağa bütöv bir ömür sərf edir. Onun tədqiqatlarında Azərbaycan dövlətçiliyinin inkişafında mühüm xidmətləri olmuş Şəmsəddin Eldəniz, Məhəmməd Cahan Pəhləvan, Qızıl Arslan, Heydərqulu xan Kəngərli, Kalbalı xan Naxçıvanski, Abbasqulu xan Kəngərli, general Ehsan xan Naxçıvanski, Behbud ağa Şahtaxtinski, Məhəmməd xan Təkinski, Mirzə Nəsrullah Əmirov, Bəhram xan Naxçıvanski və başqaları kimi hərəsi bir tarixi dövrün dövlət qurumlarının aparıcı simaları olan şəxsiyyətlərin xidmətləri dərindən təhlil olunub dəyərləndirilmişdir.

İsmayıl Hacıyev bu tarixi şəxsiyyətlərə elmi qiymət verərkən onların Azərbaycan dövlətçiliyinin inkişafındakı rolunu əsas faktor kimi dəyərləndirmiş, fəaliyyətlərinə ölkə miqyasındakı xidmətləri mövqeyindən baxışı əsas kimi qəbul etdiyi üçün qeyd edilən tarixi simalar haqqındakı araşdırmalar geniş mənada ümumiyyətlə Azərbaycan dövlətçilik tarixinin yeni faktlar və mülahizələrlə daha da zənginləşdirilməsinə töhfə vermişdir.

Akademik İsmayıl Hacıyev Azərbaycan xalqının Ümummilli Lideri, görkəmli dövlət xadimi Heydər Əliyevin dövlətçilik fəaliyyətinin, siyasi təliminin mübarizəsi və ideallarının, zəngin irsinin ölkəmizdəki əsas tədqiqatçılarından biridir. Onun "Heydər Əliyev və milli tarixi yaddaşın bərpası", "Heydər Əliyev siyasi tariximizdə və günümüzdə", "Heydər Əliyev siyasi təlimi: tarix və müasirlik" kitabları və Ulu öndərə həsr olunmuş çoxsaylı məqalələri Azərbaycan Heydər Əliyevşünaslığının qiymətli elmi nümunələridir. İsmayıl Hacıyevin təqdimatında Heydər Əliyev Azərbaycan xalqının çoxəsrlik inkişafı tarixində meydana çıxmış dünya miqyaslı qüdrətli dövlət xadimi və nadir tarixi şəxsiyyət olaraq əbədiyyət qazanmış Ümummilli Lider masştabında dərk və şərh olunur. Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri və Azərbaycan Respublikasının Prezidenti kimi xilaskarlıq və quruculuq missiyası da tarixçi alimin tədqiqatlarında zəngin tarixi faktlardan və keşməkeşli hadisələrdən çıxarılmış təbii və qanunauyğun nəticələrin axarında təhlil edilib qiymətləndirilir. Bundan başqa, İsmayıl Hacıyev Azərbaycan Respublikasında böyük inkişafın hadisələri və proseslərini Heydər Əliyev - İlham Əliyev ideallarının işığında canlandırmağı elmi-metodoloji prinsip olaraq əsas kimi qəbul etməyin nümunəsini göstərir. Bütün bunlara görə İsmayıl Hacıyevin Ümummilli Lider Heydər Əliyev haqqında yazıb nəşr etdirdiyi kitablar və məqalələr Azərbaycan milli dövlətçilik tarixinin XX əsrdə və müasir dövrdəki xüsusi bir epoxasının elmi cəhətdən əsaslı şəkildə dəyərləndirilməsi hadisəsi kimi səslənir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çoxcəhətli fəaliyyətinə həsr etdiyi tədqiqatlarda da İsmayıl Hacıyev siyasi varislik və müasirlik mövqeyindən çıxış etməklə yeni tarixi dövrün çoxəsrlik dövlətçilik tariximizin inkişafındakı xüsusi mərhələ təşkil etdiyi qənaətini inamla və qürurla təqdim edir. Prezident İlham Əliyevin siyasi iradəsi və mübarizəsindən Azərbaycanın müasir inkişafının əsas həlledici faktoru miqyasında bəhs edən tarixçi alim mahiyyət etibarilə bu günün və sabahların qüdrətli yaradıcısı haqqında elmi cəhətdən əsaslandırılmış mülahizələr irəli sürür. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Naxçıvan Muxtar Respublikasına səfərlərindən hər birinin tarixi hadisəyə çevrilməsi və regionda böyük inkişafın real təminatı olması İsmayıl Hacıyevin ardıcıl tədqiqatları ilə yeni tarixi dövrün möhtəşəm salnamələrinin parlaq səhifələrini təşkil edir. Akademik İsmayıl Hacıyev Müzəffər Ali Baş Komandanın tarixi Qarabağ Zəfərinə və Böyük Qayıdış hərəkatına misilsiz və təkrarsız tarixi hadisələr miqyasından baxaraq, ölkəmizin həm də gələcək inkişafına xalqımızın böyük inamını elmi cəhətdən əsaslandırır.

Akademik İsmayıl Hacıyev Azərbaycanın ayrılmaz üzvi tərkib hissəsi olan Naxçıvan diyarının fədakar tədqiqatçısıdır. Ümumiyyətlə, Naxçıvanın çoxəsrlik tarixində və müasir inkişafında elə bir hadisə və mühüm bir fakt yoxdur ki, İsmayıl Hacıyevin tədqiqatlarında öz əksini tapmamış olsun. Onun "Tarixdə və günümüzdə Naxçıvan", "Naxçıvan və naxçıvanlılar", "Naxçıvan Muxtar Respublikasının ictimai-siyasi həyatı, sosial-iqtisadi və mədəni inkişafı", "Naxçıvan Muxtar Respublikası - 90. Quruculuq salnaməsi", "Naxçıvan - qədim Şərq sivilizasiyası ilə bağlı olan diyar" (Azərbaycan, rus və ingilis dillərində), "Naxçıvan Muxtar Respublikası müstəqillik yollarında", "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi və mədəni inkişafı" və sair kitabları əslində geniş mənada "Naxçıvan - Azərbaycanın dövlətçilik tarixində" monoqrafiyasının fəsilləri və qiymətli əlavələri təsirini bağışlayır. Bu mənada, "Naxçıvan-Azərbaycanın dövlətçilik tarixində" sərlövhəsi İsmayıl Hacıyevin yalnız doktorluq dissertasiyasının və ya eyniadlı sanballı monoqrafiyasının deyil, bütövlükdə, alimin elmi əsərlərinin və elmi-təşkilati fəaliyyətinin ümumiləşdirilmiş adıdır.

İsmayıl Hacıyevin kitabları və məqalələri Naxçıvanın tarixinə və müasir inkişafına həsr olunmuş çoxcildlik sanballı bir Naxçıvannamədir. Bununla belə, İsmayıl Hacıyev salnaməçi olmayıb, özünəməxsus elmi təfəkkürü, qiymətləndirmə meyarları, ümumiləşdirmə bacarığı olan yaradıcı tarixçi alimdir. O, əsərlərində haqqında bəhs etdiyi tarixi dövrün və ya şəxsiyyətin sənədlər, faktlar və rəqəmlərlə təsvir olunması ilə bərabər, həm də onların fəaliyyətinə aid olduqları, yaxud əhatə etdikləri hadisələrin və proseslərin axarında təhlil edilib dəyərləndirilməsinə nail olmağı bacarır. İsmayıl Hacıyevin Naxçıvana həsr olunmuş kitablarından bu qədim diyarın sadəcə çoxəsrlik tarixi gedişatını yox, tam mənası ilə özünəməxsusluğunu, mahiyyətini, regiondakı və ölkə tarixindəki yerini və əhəmiyyətini dərindən və əsaslı şəkildə, dərkolunmuş səviyyədə öyrənmək mümkündür. Bu mənada, İsmayıl Hacıyev Naxçıvanın tarixini və müasir inkişafını azərbaycanşünaslıq miqyasında və yüksək professionallıq səviyyəsində təqdim edir. Bu baxımdan, onun tədqiqatları həsr edildiyi tarixi dövrlərin zəngin statistik salnaməsi olmaqdan daha çox müstəqil dövlətimizin müasir inkişafının əsaslı təhlillərdən keçirilərək, sistemli elmi tədqiqat kimi meydana qoyulmuş araşdırmalardan ibarətdir.

Bütün bunlara görə akademik İsmayıl Hacıyevin tədqiqatlarında Naxçıvan Muxtar Respublikasının müstəqil Azərbaycan dövlətçiliyinin inkişafındakı, ölkəmizin ərazi bütövlüyünün qorunub möhkəmləndirilməsindəki, region dövlətləri ilə əlaqələrinin genişləndirilməsindəki yeri, rolu və xidmətləri açılıb aydınlaşdırılmış, ümumiləşdirilərək ölkəmizdə gedən proseslərlə əlaqəli şəkildə obyektiv meyarlarla qiymətləndirilmişdir. Hesab edirəm ki, İsmayıl Hacıyev konkret bir tarixi dövrün inkişafını hərtərəfli şəkildə göstərmək üçün icmalçılıqdan qurtarıb, hadisələri, prosesləri və nəticələri elmi-nəzəri şəkildə əks etdirməyin özünəməxsus modelini yarada bilmişdir.

Çoxillik elmi axtarışları göstərir ki, Azərbaycan tarixində bir çox məsələlər, o cümlədən Moskva, Qars və Gümrü müqavilələrinin tarixi şəraiti, regional və beynəlxalq əhəmiyyəti, Araz-Türk Respublikasının yaranması, strukturu, tərkibi və fəaliyyəti, Azərbaycan Xalq Cümhuriyyətinin Naxçıvanla əlaqələri və sair kimi məsələlər ilk dəfə Azərbaycan tarixşünaslığının elmi dövriyyəsinə akademik İsmayıl Hacıyev tərəfindən gətirilmişdir. Eyni zamanda, İsmayıl Hacıyev Naxçıvan diyarının XIX-XXI əsrləri əhatə edən iki yüz ildən çox bir tarixi dövrünün hadisələri və şəxsiyyətləri haqqında yüzlərlə arxiv sənədlərini və dövri mətbuat materiallarını da müasir tarixşünaslıq elminin gündəminə daxil etmişdir. Həmin sənədlər və materiallar ümumiyyətlə Azərbaycan tarixinin, region dövlətləri ilə əlaqələrin araşdırılıb öyrənilməsi üçün zəruri və əhəmiyyətlidir. Bu məqamda İsmayıl Hacıyev elmi-nəzəri araşdırmaları ilə yanaşı, praktik tarixçilik missiyasını da məsuliyyətlə və şərəflə yerinə yetirmişdir.

Akademik İsmayıl Hacıyev ölkəmizdə həm də peşəkar elm və ali təhsil təşkilatçısı kimi tanınır. O, uzun illər Naxçıvan Dövlət Universitetində fakültə dekanının müavini, dekan, tədris işləri üzrə prorektor (1997-2003) vəzifələrində çalışarkən yorulmaz və tələbkar ali təhsil təşkilatçısı olduğunu göstərmişdir. Eyni zamanda, Naxçıvan Dövlət Universiteti də İsmayıl Hacıyevin elmi inkişafında əsl məktəb funksiyasını yerinə yetirmişdir. İsmayıl Hacıyev Naxçıvan Dövlət Universitetində çalışdığı dövrdə "Böyük Vətən müharibəsi illərində Azərbaycan Respublikasının ictimai-siyasi və mədəni həyatında qadınların iştirakı" mövzusunda namizədlik (1992), "Naxçıvan Muxtar Respublikası Azərbaycan milli dövlətçilik tarixində" mövzusunda doktorluq (1999) dissertasiyası müdafiə etmişdir. Azərbaycan elminin tarixində Naxçıvan Dövlət Universitetinin elmi və tədris işləri üzrə prorektorları İsmayıl Hacıyev (tarix üzrə) və Zöhrab Vəliyev (fizika üzrə) Naxçıvan Dövlət Universitetində yaradılmış ixtisaslaşdırılmış dissertasiya şurasında Ali Attestasiya Komissiyasının sədri, dünya şöhrətli alim, akademik Azad Mirzəcanzadənin və AAK-ın kollegiya üzvlərinin tam tərkibdə iştirakı, ölkə üzrə ən tanınmış mütəxəssislərin rəyləri və səsverməsi ilə doktorluq dissertasiyası müdafiə etmiş və elə həmin gün də işləri kollegiyanın səyyar iclasında müzakirə olunaraq, elmlər doktoru diplomuna layiq görülmüş yeganə elm adamlarıdırlar.

Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin sədri kimi də akademik İsmayıl Hacıyev elmi-təşkilati iş sahəsində yorulmadan çalışmaqdadır. Azərbaycan dövlətinin göstərdiyi böyük qayğıdan regionda ölkə meyarları səviyyəsində elmin inkişaf etdirilməsi üçün səmərəli şəkildə istifadə etməklə o, bir çox mühüm elmi layihələrin həyata keçirilməsini təşkil etmiş, Naxçıvanda yeni elmi nəsillərin formalaşdırılmasına xüsusi diqqət yetirmişdir. AMEA Naxçıvan Bölməsinin çap etdirdiyi 3 cildlik "Naxçıvan tarixi", "Naxçıvan folkloru antologiyası", 2 cildlik "Naxçıvan ensiklopediyası", "Naxçıvan coğrafiyası", "Naxçıvan etnoqrafiyası", habelə, "Naxçıvanın tarixi atlası" albomu, "Naxçıvan Muxtar Respublikasının dövlət qoruqları və yasaqlıqları" kimi sanballı nəşrlər Naxçıvan diyarının elmi pasportu olmaqla bərabər, geniş mənada, Azərbaycan elminə xidmətin əməli nümunəsidir.

Dövlət qayğısı nəticəsində AMEA Naxçıvan Bölməsində illərdən bəri təşkil edilmiş beynəlxalq elmi konfranslar, beynəlxalq elmi ekspedisiyalar, yaradılmış elmi-tədqiqat institutları, laboratoriyalar, muzeylər qədim elm və ictimai fikir mərkəzlərindən biri olmuş Naxçıvanda yenidən müasir tipli elmi mərkəzlərin və məktəblərin formalaşdırılmasına şərait yaradır. Akademik elmi təşkilatın rəhbəri kimi İsmayıl Hacıyevin səyləri ilə yaradılmış AMEA Naxçıvan Bölməsinin Arxeologiya və Etnoqrafiya Muzeyi Azərbaycan tarixini yaşadıb təbliğ edən mühüm mərkəzlərdən biri kimi tanınır. Son vaxtlarda yenidən qurulmuş və müasir texnologiya ilə təchiz edilmiş Naxçıvan Bölməsinin "Tusi" nəşriyyatı regionda elmi tədqiqatların mühüm nəticələri olan tədqiqiat əsərlərini yüksək poliqrafik səviyyədə geniş ictimaiyyətə çatdırmağa imkan yaradır.

Ümumiyyətlə, Naxçıvan Bölməsinin sədri kimi akademik İsmayıl Hacıyevin təşkilatçılıq bacarığı, elmi səriştəsi və məsuliyyəti bu elmi təşkilatda əldə olunan nailiyyətlərin meydana çıxmasında mühüm faktorlardan biri kimi çıxış edir. Bu gün AMEA-nın Naxçıvan Bölməsi ölkəmizin paytaxtındakı akademik elmi qurumlarla tədqiqat işləri sahəsində sağlam rəqabət apara bilən elmi mərkəzlərdən birinə çevrilmişdir. Naxçıvan Muxtar Respublikasının sosial-iqdisati və elmi-mədəni inkişafına da AMEA-nın Naxçıvan Bölməsi öz töhfələrini verməkdə davam edir.

Bütün bunlara görədir ki, akademik İsmayıl Hacıyev müstəqillik dövrü Azərbaycan elminin fəal təşkilatçılarından biri və tarixşünaslığın ön sıralarında təmsil olunan görkəmli alim kimi qəbul olunur. Onun əsərləri yaxın və uzaq xarici ölkələrdə də çap edilir və tarixşünaslıqda istinad edilən mənbələr kimi ciddi maraq doğurur. Akademik İsmayıl Hacıyev Azərbaycan elmini ölkəmizdə olduğu kimi, beynəlxalq miqyasda da yüksək səviyyədə təmsil edir. Onun xarici ölkələrdə keçirilən beynəlxalq elmi konfranslarda etdiyi dərin məzmunlu elmi məruzələr ölkəmizdən kənarda Azərbaycan elminin nüfuzunun artmasına xidmət edir.

Ölkəmizin ictimai-siyasi və elmi-mədəni həyatında da akademik İsmayıl Hacıyev yaxından və fəal iştirak edir. O, Azərbaycan Respublikası Milli Məclisinin və Naxçıvan Ali Məclisinin deputatı kimi səmərəli iş aparmış, respublikamızda müstəqil dövlətçilik və azərbaycançılıq ideallarının həyata keçirilməsinə ziyalı borcunu yerinə yetirmək üçün əzmlə çalışmışdır. Ölkəmizin elmi və mədəni mühitində də akademik İsmayıl Hacıyevin özünəməxsus yeri var. O, Respublika Dövlət Mükafatları Komissiyasının və Milli Ensiklopediya Redaksiya Şurasının üzvü kimi də üzərində düşən vəzifələri məsuliyyətlə yerinə yetirir. Azərbaycan Milli Elmlər Akademiyasında hazırlanmaqda olan çoxcildlik "Müstəqillik dövrü Azərbaycan tarixi" kitabının əsas müəlliflərindən biri olaraq, ölkə miqyaslı elmi layihənin həyata keçirilməsi üçün də səy və bacarığını əsirgəmir.

Akademik İsmayıl Hacıyev yeni elmi nəslin hazırlanması sahəsində də səmərəli fəaliyyət göstərir. Onun elmi rəhbərliyi ilə indiyədək 9 nəfər elmlər doktoru, 24 nəfər isə fəlsəfə doktorluğu dissertasiyası müdafiə edərək müvafiq elmi dərəcə almışdır. Akademik İsmayıl Hacıyev Bakıda və Naxçıvanda dissertasiya müdafiə etmiş onlarla elmlər doktorları və fəlsəfə doktorlarının rəsmi opponenti olmuş, çoxsaylı monoqrafiyalara və dissertasiyalara rəy vermişdir. Görkəmli elm xadiminin sədrliyi ilə AMEA Naxçıvan Bölməsində fəaliyyət göstərən tarixşünaslıq və arxeologiya üzrə Dissertasiya Şurası da ölkəmizdə yeni nəsil tarixçi tədqiqatçıların formalaşdırılmasına öz töhfələrini verir. Davamçıları və yetirmələri akademik İsmayıl Hacıyevə həm görkəmli alim, həm də xeyirxah və alicənab insan kimi dərin ehtiram bəsləyirlər. İsmayıl Hacıyevin şəxsiyyəti ilə elmi xidmətləri bir-birini üzvi surətdə tamamlayır.

Müstəqil Azərbaycan dövləti tərəfindən görkəmli alim və ictimai xadim İsmayıl Hacıyevin elmi və elmi-təşkilati fəaliyyəti yüksək qiymətləndirilmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə akademik İsmayıl Hacıyev 2009-cu ildə Əməkdar elm xadimi fəxri adına və 2021-ci ildə "Şöhrət" ordeninə layiq görülmüşdür. O, eyni zamanda "Heydər Əliyevin 100 illiyi", "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi" yubiley medalları ilə təltif olunmuşdur. İsmayıl Hacıyevin təltifləri sırasında Azərbaycan Milli Elmlər Akademiyasının Fəxri fərmanları və AMEA-nın döş nişanı da vardır. O, Respublika "Bilik" Cəmiyyətinin Yusif Məmmədəliyev medalını da almışdır. Bundan başqa, akademik İsmayıl Hacıyev Türkiyə Cümhuriyyəti Avrasiya Kültür və Sənət Qurumunun, Hüseyn Qazı Vəqfinin diplomları, Amerika Bioqrafiya İnstitutunun I medalı ilə də mükafatlandırılmışdır.

Azərbaycan elminə bundan sonra da geniş miqyasda və professional səviyyədə xidmət etmək missiyasını şərəflə və məsuliyyətlə həyata keçirmək yollarında görkəmli alim və tanınmış ictimai xadim akademik İsmayıl Hacıyevə daha böyük uğurlar arzulayırıq.

75 yaşın mübarək! Təbrik edirik!

**İsa HƏBİBBƏYLİ,**
**AMEA-nın prezidenti, akademik**

# Dilimizin saflığını qorumaq hər birimizin borcudur

> "Xalqı xalq edən, milləti millət edən onun ana dilidir".
>
> *Heydər Əliyev,*
> *Ümummilli Lider*



**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 5 yanvar 2026-cı ildə yerli televiziya kanallarına verdiyi müsahibəsində dövlətimizin xarici və daxili siyasətinin əsas prioritetlərindən söz açmaqla yanaşı, varlığımız, kimliyimiz, milli-mənəvi sərvətimiz olan dövlət dilimizin - Azərbaycan dilinin saflığının qorunması məsələsinə də toxunmuşdur. Ölkə başçısı bu olduqca vacib və əhəmiyyətli məsələ ilə bağlı demişdir: ”Azərbaycan dilini qorumaq hər birimizin vəzifəsidir. Bunu mən tam əminliklə deyirəm və hamını bu mübarizəyə dəvət edirəm”. Ölkə başçısı müsahibəsində dövlət atributlarından biri olan Azərbaycan dilində xarici kəlmələrin işlədilməsi hallarına da öz münasibətini bildirmişdir: ”Xarici kəlmələr dilimizi pozur, zənginləşdirmir və milli kimliyimizi də sarsıdır, damcı-damcı, yavaş-yavaş”.**

Qeyd etmək lazımdır ki, Azərbaycan dilinin dövlət dili kimi inkişafı və saflığının qorunması məsələsinə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev də böyük əhəmiyyət vermiş və bu istiqamətdə bir sıra fərmanlar imzalamışdır. Ana dilimizin böyük hamisi və qayğıkeşi olan Ulu öndər demişdir: ”Bizim ən böyük sərvətimiz ondan ibarətdir ki, dilimiz yaşayıb və zənginləşibdir. Azərbaycan ədəbi dilinin saflığına daim qayğı göstərilməlidir”. Ulu Öndərin layiqli varisi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev də milli kimliyimiz, varlığımız, qürur mənbəyimiz olan dilimizin saflığının qorunmasını daima diqqət mərkəzində saxlamış və birbaşa bu məsələ ilə bağlı bir sıra sərəncamlara imza atmışdır.

Dövlətimizin dilimizə göstərdiyi bu cür diqqət və qayğısına baxmayaraq, təəssüf hissi ilə qeyd etmək lazımdır ki, reklamlarda, sosial şəbəkələrdə, internet resurslarında, ayrı-ayrı özəl televiziya kanallarında və mətbuat orqanlarında hələ də ədəbi dilimizin normalarının pozulması, xüsusilə də yerli-yersiz əcnəbi kəlmələrin işlədilməsi hallarına təsadüf edirik. Bu cür xoşagəlməz halların qarşısının alınması və problemin birdəfəlik və kökündən həlli məsələsi bir çoxları kimi bizi də bir ziyalı, dilçi mütəxəssis və ən başlıcası, Azərbaycan vətəndaşı kimi çox düşündürmüş və narahat etmişdir. Hesab edirik ki, bu ciddi problemi aradan qaldırmaq üçün ilk növbədə maarifləndirmə işini gücləndirmək lazımdır. Hər bir Azərbaycan vətəndaşı bilməlidir ki, onun dili dünyanın ən qədim və zəngin dillərindən biridir. Dünya ədəbiyyatı xəzinəsinin nadir incilərindən olan ”Kitabi-Dədə Qorqud ” dastanı (VII əsr) bu dildə yazıya alınmışdır. Eləcə də çoxsaylı və rəngarəng digər folklor nümunələrimiz, İmadəddin Nəsimi və Məhəmməd Füzuli, Şah İsmayıl Xətai və Molla Pənah Vaqif və onlarca söz ustaları bənzərsiz poeziya örnəklərini bu dildə qələmə almışlar.

İkinci bir vacib və əhəmiyyətli məqam: bizim hər birimiz övladlarımızı körpə yaşlarından ana dilimizə sevgi ruhunda böyütməliyik, uşaqlarımızda dilimizə olan məhəbbət duyğularını daha da gücləndirməliyik. Belə yerdə görkəmli ədəbiyyatşünas və maarifçi ziyalı Firidun bəy Köçərlinin aşağıdakı sözlərini yada salmaq yerinə düşər: ”Ananın südü bədənin mayası olduğu kimi, ananın dili də ruhun qidasıdır. Hər kəs öz anasını və vətənini sevdiyi kimi, ana dilini də sevir”.

Azərbaycan dili qədimliyi və zəngin söz ehtiyatı ilə yanaşı, həm də ahəngdarlığı və axıcılığı, musiqiliyi və şeiriyyəti ilə dünyanın seçkin dilləri sırasında özünəməxsus yer tutur. Belə bir dili sevməmək və bu dildə danışmağı özünə fəxr və iftixar bilməmək mümkün deyil. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev dilimizin bu özəl keyfiyyətini xüsusi olaraq vurğulayaraq demişdir: ”Dilimiz çox zəngin və ahəngdar dildir, dərin tarixi köklərə malikdir. Şəxsən mən öz ana dilimi çox sevir və bu dildə danışmağımla fəxr edirəm”.

Düşünürük ki, xalqımızın böyük oğlu, müstəqil Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin bu sözləri hamımız üçün nümunə olmalıdır. Hər birimiz ana dilimizi sevməli və bu dildə danışmağımızla fəxr etməliyik. Belə olarsa, ədəbi dilimizin saflığının qorunması ilə bağlı problemlər də aradan qalxar.

Problemin həllinin daha bir yolunu bəzi saytlarda və televiziya kanallarında, eləcə də mətbuat orqanlarında çalışan ayrı-ayrı jurnalistlərin peşəkarlığının artırılmasında görürük. Düşünürük ki, bu sahədə də müəyyən problemlər nəzərə çarpır. Fikrimizə sübut olaraq iki kiçik nümunəni diqqətə çatdırırıq. Son dövrdə bəzi televiziya kanallarının altyazılarında ”sabiq” sözü tez-tez gözə dəyir: Sabiq prezident, sabiq nazir, sabiq rəis və s. Fikrimizcə, ərəb mənşəli ”sabiq” sözünün mənası ayrılıqda bir çoxları üçün aydın deyil. ”Sabiq” sözünün dilimizdə tam qarşılığı var: ”keçmiş”. Buna görə də ”sabiq” əvəzinə ”keçmiş” sözünü işlətmək daha məqsədəuyğundur: keçmiş prezident, keçmiş nazir, keçmiş rəis və s.

Başqa bir nümunə: bir-iki il öncə hansısa bir saytda işləyən xanım mənə zəng edərək hirslə dedi: - Orfoqrafiya lüğətində niyə ”misli” sözü yoxdur? Adını unutduğum cavan xanıma (səsindən hiss olunurdu ki, yeniyetmədir) dedim ki, bu sözün kökü ”misl” lüğətdə var. ”Misli” sözündəki ”-i” mənsubiyyət şəkilçisidir. Sözlər lüğətdə kök və başlanğıc forma şəklində verilir. Xanım qız əl çəkməyərək soruşdu: ”-i” nə şəkilçisidir? Dedim ki, mənsubiyyət, ya da izafət. Xanım etirazla dedi: -Bəs onda niyə hər yerdə ”misli” yazılır?.. Bu məsələdə xanım, doğrudan da, haqlı idi: şəhərdə ayrı-ayrı iaşə obyektlərinin şüşələrində ”misli” sözü iri hərflərlə yazılmışdı... Qeyd edək ki, ərəb mənşəli ”misl” sözü kimi, bərabər, oxşar, tay deməkdir: misli Koroğlu = Koroğlu kimi; Bunun misli (bərabəri, tayı) yoxdur və s.

Bir neçə il öncə çayxanaların qabağında gözümə dəyən ”misli” sözünün mənası, düzü, bizim üçün də bir qədər qaranlıq qaldı. Onu da əlavə edək ki, ”misl” sözü daha çox klassik ədəbiyyatda ”bərabər” leksik vahidi ilə qoşa işlənir: Dünyada onun misli-bərabəri tapılmaz.

Bu məsələni yada salmaqda əsas məqsədimiz bəzi gənc jurnalistlərin peşəkarlığı və dilbilmə qabiliyyətinin heç də arzuolunan səviyyədə olmamasını diqqətə çatdırmaqdır. Hər halda hesab edirik ki, bu sahədə müəyyən çatışmazlıqlar vardır. Bu problemin həllinə gəldikdə isə düşünürük ki, gənc jurnalistlərin işə qəbulu zamanı onların dilbilmə və peşəkarlıq səviyyəsinin yoxlanılması işin xeyrinə olar. Yeri gəlmişkən onu da qeyd edək ki, dilimizə yatmayan ərəb və fars mənşəli bəzi qəliz sözlərdən yaxa qurtarmağın vaxtı çatmışdır. ”Müvəffəqiyyət”, ”müqəddimə”, ”təxliyə”, ”mündəricat”, ”naminə” və s. bu qəbildən olan sözlərdir. Onların yerinə ”uğur”, ”giriş” və ya ”ön söz”, ”boşaldılma”, ”kitabın içindəkilər”, ”uğrunda”, ”yolunda” sözlərini işlətmək məqsədəuyğundur.

İkinci bir təklif və ya tövsiyəmiz: media işçiləri ilə dilçi mütəxəssislər arasındakı əlaqələr gücləndirilməli, bu yöndə vaxtaşırı müvafiq tədbirlər keçirilməlidir. Hesab edirik ki, bəzi televiziya kanallarına dilçi-üslubçu mütəxəssislərin bu işə cəlb edilməsi də məqsədəuyğun olar.

Problemlə bağlı onu da qeyd etmək lazımdır ki, mövcud çatışmazlıqların kökündə dilçiliyin nitq mədəniyyəti sahəsi üzrə biliklərin yetərincə olmaması dayanır. Buna görə də fikrimizcə, bütün ali təhsil ocaqlarında ”Nitq mədəniyyəti” fənninin lazımi səviyyədə tədrisi məqsədəuyğun olar.

Dilimizin saflığının qorunması ilə bağlı daha bir məsələni qeyd etmək istəyirik. Vaxtilə Azərbaycan dövlət televiziyasında, eləcə də İctimai televiziyada ”Azərbaycan dili” verilişi fəaliyyət göstərirdi. Həmin verilişləri bərpa etmək və nitq mədəniyyəti məsələlərinə daha geniş yer ayırmaq da sözügedən problemin aradan qaldırılması üçün faydalı olar.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 5 yanvar 2026-cı il tarixdə yerli televiziya kanallarına verdiyi müsahibədə ayrıca yer ayırdığı dilimizin qorunması ilə bağlı məsələyə dair bu kiçik qeydlərimizin sonunda onu da xatırlatmaq, diqqətə çatdırmaq istəyirik ki, dil hər bir xalqın ən böyük milli-mənəvi sərvətlərindən biri sayılır. Bu əvəzsiz milli sərvəti qorumaq, onun keşiyində ayıq-sayıq dayanmaq isə hər bir kəsin, hər birimizin borcudur. Gəlin hamılıqla dilimizi - milli sərvətimizi qoruyaq.

**Möhsün NAĞISOYLU**
**Azərbaycan Milli Elmlər Akademiyasının müşaviri, akademik**

# Prezident İlham Əliyevin Azərbaycan dili ilə bağlı əsas mesajları və milli təhlükəsizlik konsepsiyası



**Prezident İlham Əliyevin yerli televiziya kanallarına müsahibəsində Azərbaycan dili barədə söylədiklərində əsas xətt kimi bir fikir önə çəkilir: dil milləti birləşdirən və dövlətçiliyin dayaqlarını möhkəmləndirən ən fundamental amildir. Prezidentin vurğuladığı kimi, dil yalnız ünsiyyət vasitəsi deyil, eyni zamanda, dövlət rəmzləri bayraq, gerb və himn ilə bir sırada dayanan, dövlətçilik şüurunu və milli özünüdərki formalaşdıran başlıca atributdur. Bu yanaşma dil məsələsinə sırf mədəni hadisə kimi deyil, milli təhlükəsizlik və dövlətçilik konsepsiyası kimi baxmağı tələb edir.**

Prezidentin əsas mesajı ondan ibarətdir ki, məhz dil həmin tarixi təzyiqlər içində milləti millət kimi saxlayan, onu parçalanmadan qoruyan aparıcı amil olub. Ən diqqətçəkən məqam isə budur ki, Azərbaycan dili əsrlər boyu qorunub, bu gün danışdığımız dil ulu babalarımızın danışdığı dildən mahiyyət etibarilə uzaqlaşmayıb. Ölkə rəhbəri bunu böyük nailiyyət, xalqın böyüklüyünün göstəricisi kimi qiymətləndirir. Bu mülahizə dilin tarixi davamlılığını təsadüfi proses kimi yox, kollektiv yaddaşın və milli iradənin nəticəsi kimi təqdim edir. Dilin qorunması ”öz-özünə baş verən” hadisə deyil, müstəmləkəçilik şəraitində belə ana dilinə sədaqət, onu nəsildən-nəslə ötürmək, gündəlik həyatda yaşatmaq xalqın daxili müqavimət mexanizmi olub. Bu baxımdan çıxışın ideyası aydındır, əcdadların qoruyub əmanət etdiyi dili müasir dövrdə qorumaq daha böyük məsuliyyətdir, çünki bu gün müstəqil dövlətimiz, öz təhsil sistemimiz və informasiya resurslarımız var.

Çıxışın ən prinsipial hissələrindən biri dilə xarici təsirlər məsələsidir. Prezident sovet dövründə leksikona daxil olmuş bəzi sözlərin müstəqillik illərində təmizlənməsini nümunə göstərərək, bu gün də bəzən bilərəkdən, bəzən bilməyərəkdən dilə daxil edilən xarici kəlmələrin təhlükəsinə diqqət çəkir. Dövlət başçısının mövqeyi qətiyyətlidir: ”...Xarici kəlmələr dilimizi pozur, zənginləşdirmir və milli kimliyimizi də sarsıdır, damcı-damcı, yavaş-yavaş”. Burada mühüm bir məntiq qurulur, dil pozulduqda milli kimlik zəifləyir, milli kimlik zəiflədikdə dövlətçilik dayaqları zədələnir, nəticədə isə ölkə böyük fəlakət riskləri ilə üzləşə bilər. Bu, dil məsələsinin yalnız estetik və ya dilçilik problemi olmadığını, dövlətin gələcəyi ilə bağlı strateji məsələ olduğunu göstərən ardıcıl səbəb-nəticə zənciridir.

Prezident, eyni zamanda, heç bir dilin əleyhinə olmadığını, çox dil bilməyin faydalı olduğunu açıq deyir. Lakin əsas prinsip belə formalaşdırılır. Xarici dillər lazım olan yerdə işlədilməli, ana dili isə ictimai, mədəni və media məkanında qorunmalıdır. Bu mövqedə dil siyasətinin məqsədi izolyasiya deyil, müasir dünyada internet, sosial şəbəkələr və qlobal təmaslar fonunda qapalı yaşamağın mümkünsüzlüyü qəbul edilir. Amma qloballaşma şəraitində dilin qorunması ”mübarizə” kimi təqdim olunur. Yəni şüurlu seçim, daxili intizam və ictimai məsuliyyət tələb edən proses.

Şərqşünaslıq İnstitutunda Azərbaycan dilinə verilən yüksək qiyməti aparılan tədqiqat işlərindən də görmək olar. Belə ki, institutun əməkdaşlarının ”İran İslam İnqilabından sonra Cənubi azərbaycanlıların ana dili uğrunda mübarizəsi”, ”Cənubi Azərbaycan şairlərinin farsdilli yaradıcılığına Azərbaycan dilinin təsiri” mövzusunda tədqiqatlarını buna misal göstərmək olar. Tədqiqatçılar öz mövzuları ilə bağlı müxtəlif beynəlxalq konfranslarda məruzələrlə çıxış ediblər. Beləliklə, Prezidentin çıxışı Azərbaycan dilini milli kimliyin əsas sütunu, dövlətçiliyin təhlükəsizlik xətti kimi təqdim edir. Mesaj sadə, amma dərin məzmunludur, dilimizi nə qədər saf və təmiz saxlayırıqsa, milli kimliyimiz də bir o qədər bərqərar və davamlı olar. Bu çağırış hər kəsə ünvanlanır - vətəndaşa, jurnalistə, ziyalıya, dövlət qurumlarına və diaspora. Çünki dilin taleyi, əslində, millətin və dövlətin taleyidir.

**Nazim MƏNSİMOV**
**AMEA-nın akademik Z.Bünyadov adına Şərqşünaslıq İnstitutunun Cənubi Azərbaycan şöbəsinin elmi işçisi**

# İraqın "Bağdadiyun" qəzetində şərqşünas alimin kitabı haqqında məqalə dərc olunub

**AMEA-nın akademik Z.Bünyadov adına Şərqşünaslıq İnstitutunda aparılan tədqiqatlara, görülən işlərə sərhədlərimizdən kənarda da yüksək dəyər verilməsini bu elm müəssisəsi, onun alimləri, araşdırmaları, nəşr etdirdiyi kitablar haqqında xarici ölkələrin nəşrlərində mütəmadi yazıların dərc olunması da göstərir. Bu istiqamətdə növbəti məqalə İraq Respublikasında fəaliyyət göstərən ”Bağdadiyun” (”Bağdadlılar”) adlı gündəlik qəzetdə işıq üzü görüb.**


بغداديون
الواقع الثقافي العراقي بين النهوض والتحديات

Məqalə Şərqşünaslıq İnstitutunun Din və ictimai fikir şöbəsinin müdiri, fəlsəfə üzrə fəlsəfə doktoru, dosent Elnur Mustafayevin Avrasiya Beynəlxalq İnkişaf Assosiasiyasının (ABİA) təşəbbüsü və təşkilatçılığı, AMEA-nın akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun Elmi şurasının qərarı əsasında 2025-ci ildə Bakıda azərbaycanca, Bağdadda isə ərəbcə nəşr olunmuş ”İraq-türkman dilinin qrammatikası (Azərbaycan dili əsasında)” adlı kitabına həsr olunub.

Məqalədə E.Mustafayevin hazırladığı kitabda İraq-türkman dilinin qrammatik qanunauyğunluqlarının Azərbaycan dili qrammatikası ilə müqayisəli təhlili aparılaraq tam uyğunluğu müəyyən edildiyi və türkman dilinin müstəqil qrammatikasının ilkin bazasının əsaslarının təqdim edildiyi vurğulanır.

Kitabın strukturunun açıqlandığı yazıda ”Fonetika”, ”Morfologiya” və ”Sintaksis” başlıqlı fəsillərdə təqdim edilən materiallar barədə məlumat verilir, ”Atalar sözləri” bölməsində Azərbaycan xalqı və İraq türkmanlarının istifadə etdiyi dörd yüz müştərək zərbi-məsəl və hikmətamiz kəlamın cəm edilməsinə, ”Lüğət” adlı hissəsində isə İraq türkmanlarının leksik söz tərkibini müəyyən etmək məqsədilə müfəssəl izahları ilə birlikdə 1409 ümumişlək söz və söz birləşmələrinin seçilib əlavə edilməsinə diqqət çəkilir.

Məqalədə bildirilir ki, kitabın ərsəyə gəlməsi, İraq-türkman dilinin tədqiqi Azərbaycan dilinin təsir coğrafiyasının genişlənməsinə zəmin yaradacaq. Digər tərəfdən isə, İraq-türkman dilinin öyrənilməsi İraq türkmanları ilə Azərbaycan xalqı arasında elmi-mədəni və ədəbi əlaqələrin inkişaf tarixinin müəyyənləşdirilməsi baxımından böyük əhəmiyyətə malikdir.

# Akademik Həsən Əliyev haqqında yeni kitab

**Görkəmli Azərbaycan alimi, Əməkdar elm xadimi, akademik, Ümumittifaq Torpaqşünaslıq Cəmiyyətinin üzvü, Ümumittifaq Coğrafiya Cəmiyyətinin üzvü, İngiltərə Kraliça Biblioqraflar Cəmiyyətinin həqiqi üzvü Həsən Əliyev öz dövrünün ən diqqətəlayiq şəxsiyyətlərindən biri kimi, həm də bir insan olaraq dünən də, bu gün də onu tanıyanların qəlbində dərin iz buraxmışdır. İyirmi ilə yaxın AMEA-nın Coğrafiya İnstitutunun direktoru olan Həsən Əliyev Azərbaycan torpaqlarını qarış-qarış gəzmiş və sözün əsil mənasında vətənpərvər bir alim kimi bu torpaqların rəngarəng quruluşu və xüsusiyyətlərinin öyrənilməsində müstəsna xidmətlər göstərmişdir.**

Akademik Həsən Əliyevin əsas elmi yaradıcılığı torpaqşünaslığın nəzəriyyəsi, ekologiya, botanika, bitkiçilik, təbii ehtiyatların və təbii şəraitin, landşaftın qorunub daha səmərəli istifadə olunması problemlərini, ümumiyyətlə, təbiətşünaslığın müxtəlif sahələrini əhatə etmişdir. O, nəinki ölkəmizin, ümumən Cənubi Qafqaz torpaqlarının əmələ gəlməsi və coğrafiyasının tədqiqinə böyük əmək sərf etmişdir.

Alim Azərbaycanda Beynəlxalq Biomüxtəliflik Proqramının işlənib hazırlanması kimi çətin bir vəzifənin həyata keçirilməsinə rəhbərlik etmişdir. Təbii ehtiyatların tədqiqi, təbiətdən istifadənin elmi cəhətdən əsaslandırılması və onların mühafizəsinin təşkili Həsən Əliyevin elmi və ictimai fəaliyyətinin əsas istiqamətini təşkil etmişdir. Azərbaycan təbiətinin, torpağının, suyunun, havasının mühafizəsi sahəsində onun xidmətləri əvəzsizdir. Ancaq bütün bunlar asanlıqla başa gəlməmişdir. Böyük alim sanki hər addımı ilə yeni cığırlar açmışdır.




Akademik Həsən Əliyevin yaradıcı ömrünün belə unudulmaz anlarını özündə əks etdirən kitab indi əlimizin altındadır. Onun müəllifi - 96 yaşlı alim, kənd təsərrüfatı üzrə fəlsəfə doktoru (o vaxtlar elmlər namizədi) Barat Cəfərlidir. Barat müəllim uzun illər akademik Həsən Əliyevin rəhbərliyi altında işləmiş, onun sevimli aspirantı olmuş, təşkil etdiyi elmi ekspedisiyalarda fəal iştirak etmişdir. Barat müəllim 26 yaşından görkəmli alimin ömrünün sonunadək (1907 - 1993) onun yanında olmuşdur.

Bu ekspedisiyaların biri də 1956-cı ilin iyun ayında Zaqatala rayonunda yerləşən Tur dağına edilmişdir ki, kitab da, əsasən, həmin səfərə həsr olunmuşdur. Məhz həmin ekspedisiya zamanı böyük alimin ən çətin, hətta riskli vəziyyətlərdə belə, necə məsuliyyətlə çalışdığı, yüksək dağlıq şəraitində, Tur dağındakı sıldırım və uçurumların yaratdığı təhlükələrdən çəkinməzliyi bütün obyektiv reallığı ilə, bir şahid həssaslığı ilə qələmə alınmışdır.

Böyük ömrün ən maraqlı, ən məsuliyyətli məqamlarını təsvir edən bu kitab faktlar əsasında yazıldığı üçün, həm akademik Həsən Əliyevin həyatına vaqif olmaq, həm də Azərbaycan elminin, konkret olaraq, coğrafiya, torpaqşünaslıq və kənd təsərrüfatı elmlərinin praktiki təməllər üzərində necə qurulması və inkişaf etməsini öyrənmək baxımından olduqca böyük əhəmiyyət daşıyır.

Uzun illər akademik Həsən Əliyevlə birlikdə çalışmış, onun ən yaxın həmkarı olmuş Barat Cəfərli özü də böyük alimdən mükəmməl elm və həyat dərslərini öyrənən müdrik bir şəxsiyyətdir. Olduqca ibrətamizdir ki, o, ustadının dolğun portretini yaratdığı bu xatirə-oçerkini kitabda bəhs olunan olaylardan 70 il sonra, həm də bütün incəliyi və təfərrüatları ilə qələmə almışdır. Barat Cəfərlinin əsəri XX əsrdə Azərbaycan elminin dayaqlarından olmuş Həsən Əliyevin - Ümummilli Liderimiz Heydər Əliyevin qardaşının həyat və fəaliyyətini öyrənmək baxımından dəyərli qaynaqdır.

96 yaşlı alim Barat Cəfərlinin "Tur uçurumu"ndan keçərkən. Görkəmli Azərbaycan alimi, akademik Həsən Əliyev haqqında xatirələrim" kitabının elmi rəyçisi və "Ön söz"ün müəllifi fəlsəfə elmləri doktoru, professor Rahid Ulusel, redaktoru Azərbaycan Jurnalistlər Birliyinin üzvü Əlihüseyn Şükürovdur.

**Rahid ULUSEL**
**fəlsəfə elmləri doktoru, professor,**
**Fəlsəfə Cəmiyyətləri Beynəlxalq Federasiyasının üzvü**

# Azərbaycan-Kərkük elmi, ədəbi-mədəni əlaqələrinin inkişaf etdirilməsi istiqamətində növbəti addım




**Azərbaycanla İraq türkmanlarının daha da yaxınlaşması, elmi, ədəbi-mədəni əlaqələrinin inkişaf etdirilməsi istiqamətində növbəti addım atılıb.**

Bu məqsədlə "kerkuktenazerbaycana.com" internet saytı istifadəyə verilib. Sayt Azərbaycan Milli Elmlər Akademiyası və Kərkük Kültür Dərnəyinin birgə layihəsi olaraq reallaşıb.

Saytda Azərbaycan və İraq türkmanlarının ortaq dəyərləri, dil xüsusiyyətləri, görkəmli şəxsiyyətləri və uzun əsrlər boyu mövcud olmuş ədəbi-mədəni əlaqələri ilə bağlı məqalələr, elmi araşdırmalar və gündəlik xəbərlər yer alacaq.

İnternet saytının İraq türkmanları tərəfdən Kərkük Kültür Dərnəyinin rəhbəri Dr.Şəmsəddin Kuzəçi, redaktoru isə filologiya üzrə fəlsəfə doktoru Orxan İsayevdir.

# Folklor İnstitutunun əməkdaşının dərs vəsaiti nəşr olunub

